# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

18 aprel 2026-cı il, şənbə
№ 066 (7133)
Qiymәti 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!

# "Gələcəyi planlaşdırarkən qeyri-müəyyənliklərin öhdəsindən gəlmək"

## Azərbaycan Prezidenti V ADF-də...



Bax səh. 2

## Bakı-Əbu-Dabi strateji münasibətləri: perspektivdə nələr var?

Bax səh. 4

## Azərbaycan-Rusiya münasibətləri qarşılıqlı etimada əsaslanır

Zəngilanda keçirilən Azərbaycan-Rusiya iqtisadi əməkdaşlıq məsələləri üzrə Dövlət Komissiyasının 24-cü iclasında ölkələr arasında münasibətlərin vəziyyəti və gələcək inkişaf yolları müzakirə olunub. Hökumətlərarası Komissiyanın Rusiya tərəfindən sədri, Rusiya hökumətinin sədr müavini Aleksey Overçuk bildirib ki, yaxın qonşu və dost ölkələr olan Azərbaycan və Rusiya qarşılıqlı hörmət və faydalı əməkdaşlıq prinsiplərinə sadiq qalaraq siyasi, iqtisadi, humanitar sahələrdə əlaqələri inkişaf etdirir. Tərəflər arasında ticarət, investisiya, maliyyə, nəqliyyat, kənd təsərrüfatı, energetika, turizm və humanitar sahələrdə əməkdaşlığın mövcud vəziyyəti olduqca qənaətbəxşdir və hədəflər üzrə nəzərdə tutulan layihələrin icrası daha yaxşı perspektivlər vəd edir.

Azərbaycan və Rusiya regionun coğrafiyasını dəyişən müasir nəqliyyat marşrutlarında sıx tərəfdaşdır, nəqliyyat-logistikanın aparıcı arxitekturasına çevrilmiş "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafı təkcə bu, iki ölkə üçün deyil, digər partnyorlar üçün də...

Bax səh. 5




## Antalya Diplomatiya Forumu - Ortaq strategiyalar və perspektivlər

Bax səh. 3

## Rusiya-Ukrayna müharibəsi ikinci planda...

Bax səh. 6

## "Köhnə qitə" təhlükəsizliyini necə qoruyacaq?

Bax səh. 7

## Mənzil böhranının həlli üçün qlobal platforma

"Euronews" telekanalı may ayında Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasına (WUF13) hazırlıq işləri və bu qlobal tədbirin əhəmiyyəti haqqında reportaj hazırlayıb. Reportajda bildirilir ki, tədbirin əsas diqqəti qlobal mənzil böhranı məsələlərinə, sürətli urbanizasiya və əlçatan mənzilə artan ehtiyac şəraitində şəhərlərin inkişafına dair müasir yanaşmalara cəmlənəcək. Telekanal qeyd edir ki, bu gün bütün dünyada 1 milyarddan çox insan qənaətbəxş sayılmayan mənzil şəraitində yaşayır, eyni zamanda şəhər əhalisinin sürətli artımı, mənzillərin bahalaşması və demoqrafik təzyiq bütün dünyada şəhər sistemlərinə düşən yükü artırır. Belə bir şəraitdə WUF13 mənzil siyasəti, şəhər infrastrukturu və dayanıqlı inkişaf sahəsində praktiki həll yollarının müzakirəsi üçün beynəlxalq platforma rolunu oynamaqla, inklüziv və dayanıqlı şəhər inkişafı sahəsində təcrübə mübadiləsi və həll yollarının axtarışı üçün unikal model olacaq...

Bax səh. 4

## Hörmüzdə boğaza yığılan dünya...
### Kilidin açarı kimdədir?



Bax səh. 6

# İlham Əliyevin Antalyada görüşləri...

## Suriyanın keçid dövrü Prezidenti ilə görüş...



Aprelin 17-də Antalyada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Suriya Ərəb Respublikasının keçid dövrü Prezidenti Əhməd Əl Şaraa ilə görüşü olub.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı Prezident İlham Əliyevlə Əhməd Əl Şaraanın ötən il Azərbaycana səfəri zamanı, həmçinin 4-cü Antalya Diplomatiya Forumu çərçivəsində görüşləri məmnunluqla xatırlandı.

Suriyada baş vermiş dəyişikliklərdən sonra ölkələrimiz arasında münasibətlərin inkişafı ilə bağlı konkret addımların atıldığı vurğulandı.

Enerji sahəsində əməkdaşlığın vacibliyinə toxunularaq, bu xüsusda Azərbaycan qazının Türkiyə ərazisindən Suriyaya ixracı layihəsinin həyata keçirilməsinin əhəmiyyəti və bunun Suriyanın enerji təhlükəsizliyinə töhfə verməklə ümumilikdə bu ölkənin inkişafında önəmi qeyd olundu.

Əhməd Əl Şaraa Azərbaycanın Suriyaya göstərdiyi dəstəyə görə dövlətimizin başçısına bir daha minnətdarlıq etdi.

Görüşdə ikitərəfli münasibətlərin perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıldı, əlaqələrimizin inkişafında müxtəlif səviyyəli qarşılıqlı səfərlərin və təmasların roluna toxunuldu.

Söhbət zamanı bölgədə yaranmış gərginlikdən narahatlıq ifadə olundu, münaqişənin diplomatik yolla həll edilməsinin vacibliyi vurğulandı.

Dövlətimizin başçısı Əhməd Əl Şaraanı ölkəmizə səfərə dəvət etdi.

Dəvət məmnunluqla qəbul olundu.

## Şimali Kipr Prezidenti ilə görüş...



Aprelin 17-də Antalyada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Tufan Erhürmanla görüşü olub.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Tufan Erhürmana Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti seçilməsi münasibətilə təbriklərini çatdırdı.

Tufan Erhürman təbriklərə görə minnətdarlığını bildirdi.

Söhbət zamanı Azərbaycan Respublikasının Şimali Kipr Türk Cümhuriyyətinə göstərdiyi daimi dəstəyə toxunuldu.

Prezident Tufan Erhürman buna görə dövlətimizin başçısına təşəkkür etdi.

Azərbaycan Prezidenti ölkəmizin həmişə Şimali Kipr Türk Cümhuriyyətinin yanında olduğunu deyərək, göstərilən dəstəyin gələcəkdə də davam etdiriləcəyini vurğuladı.

Söhbət zamanı bu ilin aprelində Azərbaycan Milli Məclisi, Türkiyə Böyük Millət Məclisi və Şimali Kipr Türk Cümhuriyyəti Məclisinin dostluq qrupları üzvlərinin Bakıda keçirilmiş 3-cü iclasının əhəmiyyəti qeyd edildi.

Görüşdə Şimali Kipr Türk Cümhuriyyətinin Türk Dövlətləri Təşkilatına müşahidəçi qismində qatılmasının önəmi vurğulandı, həmçinin bir sıra sahələrdə əməkdaşlıqla bağlı müzakirələr aparıldı.

## Moldova Prezidenti ilə görüş...



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 17-də Antalyada Moldova Respublikasının Prezidenti Maya Sandu ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı dövlətimizin başçısı ilə Maya Sandunun Azərbaycanda və Moldovada, həmçinin beynəlxalq tədbirlər çərçivəsində keçirdiyi görüşlər məmnunluqla xatırlandı.

Azərbaycan-Moldova münasibətlərinin perspektivləri müzakirə olundu, əlaqələrimizin inkişaf etdiyi vurğulandı, müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin əməkdaşlığımızın genişləndirilməsi baxımından roluna toxunuldu.

Ölkələrimiz arasında enerji sahəsində əməkdaşlıq üçün geniş imkanların olduğu vurğulandı. Moldovanın xüsusilə enerjiyə ehtiyac duyduğu zamanda Azərbaycan tərəfindən nümayiş olunan dəstək bir daha yüksək qiymətləndirildi.

Maya Sandu vurğuladı ki, Moldovada yaşayan Azərbaycan icması ictimai-siyasi həyatda fəal iştirak etməklə bu ölkənin inkişafına öz töhfəsini verir.

Görüşdə dövlət başçıları qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi apardılar.



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 17-də 5-ci Antalya Diplomatiya Forumu çərçivəsində Pakistan İslam Respublikasının Baş naziri Məhəmməd Şahbaz Şəriflə görüşüb.**

**Aprelin 17-də Antalyada Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın görüşü keçirilib.**














# “Gələcəyi planlaşdırarkən qeyri-müəyyənliklərin öhdəsindən gəlmək”

## Azərbaycan Prezidenti V ADF-də...

Aprelin 17-də Türkiyənin Antalya şəhərində 5-ci Antalya Diplomatiya Forumunun açılış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva tədbirdə iştirak ediblər.

Tədbirdə Türkiyənin xarici işlər naziri Hakan Fidan açılış nitqi ilə çıxış etdi.

Sonra Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan çıxış etdi. Prezident Rəcəb Tayyib Ərdoğan çıxışında Türkiyə ilə Ermənistan arasında davam edən normallaşma prosesinin Azərbaycanla əlaqəli şəkildə aparıldığını vurğuladı. Türk Dövlətləri Təşkilatından danışan Türkiyə Prezidenti qurumun fəaliyyətinin daha da inkişaf etdiyini bildirərək dedi: “Bu ilin son aylarında ölkəmizdə təşkil edəcəyimiz XIII Türk Dünyası Zirvəsində yeni dövrdə sədrliyi Azərbaycandan təhvil alacağıq. İnşallah, bu müddətdə təşkilatımızın beynəlxalq fəaliyyətini və nüfuzunu daha da artıracağıq. Azərbaycanla əlaqələndirilmiş şəkildə qonşumuz Ermənistanla normallaşma prosesində addım-addım irəliləyirik. Bu minvalla Asiya ilə Avropa arasındakı ticarətdə ən etibarlı marşrut olan və Xəzərdən keçən Şərq-Qərb - Orta Dəhliz təşəbbüsünə də güclü dəstəyimiz davam edir”.

x x x

Qeyd edək ki, geosiyasi gərginliklər, dəyişən güc balansları, ticarət maneələri və çoxtərəfliliyə artan təzyiq fonunda cari qlobal mənzərənin proqnozlaşdırılması getdikcə daha çətin xarakter alır. Beşinci Forumun mövzusu “Gələcəyi planlaşdırarkən qeyri-müəyyənliklərin öhdəsindən gəlmək” riskləri və imkanları müəyyənləşdirməyi, strategiyalar hazırlamağı və əldə olunan razılaşmaları əməli addımlara çevirməyi tələb edir.

Builki forumda 150-dən çox ölkədən 22 dövlət və hökumət başçısı, 14 dövlət və hökumət başçısının müavini, 39-u xarici işlər naziri olmaqla 50-dən artıq nazir, həmçinin 75-i beynəlxalq təşkilatların nümayəndəsi olmaqla ümumilikdə 500-dən çox yüksəksəviyyəli şəxs iştirak edir.

Forum çərçivəsində liderlərin panelləri də daxil olmaqla, 40-dan çox tədbir və sessiyanın keçirilməsi nəzərdə tutulur.












# Antalya Diplomatiya Forumu - Ortaq strategiyalar və perspektivlər

Dünən qardaş Türkiyədə beşinci Antalya Diplomatiya Forumu (ADF 2026) işə başlayıb. Prezident Rəcəb Tayyib Ərdoğanın himayəsində, Türkiyənin Xarici İşlər Nazirliyinin (XİN) ev sahibliyi ilə reallaşan tədbir bu il "Gələcəyi planlaşdırarkən qeyri-müəyyənliklərin öhdəsindən gəlmək" mövzusunda təşkil edilib.

Üç gün davam edəcək forum çərçivəsində, liderlər panelləri də daxil olmaqla, 40-dan çox tədbir və sessiyanın keçirilməsi nəzərdə tutulur.

Sessiyalarda qlobal sistemdə dərinləşən qeyri-müəyyənliklər, transformasiya prosesləri və regional inkişaflar ətrafında geniş spektrdə fikir mübadiləsi aparılır. Bununla yanaşı, müzakirələrdə siyasi, ekoloji, iqtisadi və texnoloji istiqamətlərdə formalaşan əsas gündəm mövzuları diqqət mərkəzində saxlanılır.

Ənənəvi olaraq Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə V Antalya Diplomatiya Forumuna qatılıblar.

**Qlobal geosiyasətdə qardaş Türkiyənin artan rolunun təcəssümü**

Prezident Rəcəb Tayyib Ərdoğanın himayəsində Türkiyə XİN tərəfindən təşkil olunan ADF diplomatiya, beynəlxalq əlaqələr və qlobal çağırışlar üzrə fikir mübadiləsi aparmaq üçün yüksək səviyyəli beynəlxalq platformadır. Onun əsas məqsədləri qlobal diplomatik dialoqa töhfə vermək, çoxtərəfli əməkdaşlıq formatını təşviq etmək, yeni qlobal problemlərə diplomatik cavablar tapmaq və Türkiyənin diplomatik təşəbbüslərini qlobal platformada tanıtmaqdır.

Antalya Diplomatiya Forumunun ilk dəfə 2020-ci ilin martında keçirilməsi planlaşdırılmışdı. Lakin COVID-19 pandemiyası səbəbindən planlar təxirə salındı və ilk ADF 2021-ci ildə baş tutdu.

Dünyada beynəlxalq müzakirə platformalarının sayı çoxdur. ADF bu siyahıda yeni başlanğıc olsa da, elə ilk toplantısından qlobal səviyyədə belə bir müzakirə platformasına ehtiyac olduğunu təsdiqləyib. Bu gün dünya çox narahat bir dönəmdən keçir. İkinci Dünya müharibəsindən sonra beynəlxalq ictimaiyyət dağıdıcı savaşlara "yox" deyirdi. Elə düşünülürdü ki, dünya müharibələrin fəsadlarından, ən əsası da milyonlarla insanın həyatına son qoyulmasından ibrət götürəcək və müharibə səhifəsini birdəfəlik bağlayacaq. Yeni beynəlxalq münasibətlər sisteminin idarə olunmasında, dünya nizamının qorunmasında, hamı üçün bərabər prinsiplərin gözlənilməsində Birləşmiş Millətlər Təşkilatına böyük ümidlər bəslənilirdi.

İllər ötdükcə dünya nizamında transformasiyalar baş verdi və təəssüf ki, bu transformasiyalar beynəlxalq prinsiplərin pozulması, BMT-nin rolunun azalması istiqamətində getdi. Deyə bilərik ki, son illərdə mənfi proseslər kulminasiya nöqtəsinə yüksəlib. Prezident İlham Əliyevin bildirdiyi kimi, bu gün artıq dəyişən dünyada güc amili demək olar ki, rəsmi qaydada ön plana çıxıbdır. Bəli, dünyanın ayrı-ayrı regionlarında güc mərkəzləri zorakı yollarla, hətta BMT qətnamələrinə məhəl qoymadan milli dövlətlərə qarşı aqressiyalar həyata keçirirlər. Qəzzada müharibənin aktiv fazası başa çatsa da, burada baş verən qətliamlar, 70 mindən çox insanın həyatını itirməsi unudulmur. Hazırda Yaxın Şərqin, Şərqi Avropanın müharibə alovuna bürünməsini, qlobal təchizatın təhdidlərlə üzləşməsini izləmək son dərəcə kədərlidir. Hətta nüvə silahlarından istifadə edilməsi ehtimalları ətrafında da tez-tez müzakirələr aparılır.

Belə acı reallıq fonunda dünyanın xilası naminə diplomatiyanın nə qədər önəmli olduğu aydın şəkildə başa düşülür. Bu, bəlkə də, hazırda bəşəriyyətin bir nömrəli çağırışıdır. Beynəlxalq birlik müharibələrdən imtina edərək diplomatiyaya üz tutmalıdır. Antalya Forumu da məhz bu çağırış fonunda yaranan platformadır. İndiyədək bu çərçivədə baş tutan tədbirlərdə ayrı-ayrı ölkələrin yüksəksəviyyəli rəsmiləri, müxtəlif beyin mərkəzlərinin təmsilçiləri, ekspertlər birmənalı şəkildə münaqişələrin həllində diplomatiyaya önəm verilməsinin zəruriliyini vurğulayıblar və optimal həll variantları təklif ediblər.

Belə bir platformanın Türkiyədə formalaşması da təsadüfi deyil. Son illərdə Türkiyə regional və qlobal proseslərə fəal müdaxilə etmək iqtidarında olan aktor qismində qəbul olunur. Buna qardaş ölkənin hər cür potensialı var. Əvvəla, Türkiyə hərbi qüdrəti ilə NATO-nun ikinci dövləti səviyyəsinə yüksəlib. Lakin Türkiyə hər zaman geosiyasətdə diplomatiyanı önə çəkir. Təkcə son illərdə rəsmi Ankara yaxın və uzaq coğrafiyalarda gedən müharibələrə məhz diplomatiya yolu ilə son qoyulmasına təşəbbüslər göstərib, müxtəlif səviyyələrdə aparılan danışıqlara məmnuniyyətlə ev sahibliyi edib. Eyni zamanda, Türkiyənin dövlət başçısı Rəcəb Tayyib Ərdoğan dünyada hətta güc mərkəzləri tərəfindən də qəbul edilən və hörmət bəslənilən nüfuzlu liderdir. Mötəbər beynəlxalq təşkilatlarda onunla hesablaşırlar və irəli sürdüyü təşəbbüsləri qəbul edirlər. Beləliklə də, Antalya Diplomatiya Forumu çox doğru olaraq regional və qlobal geosiyasətdə qardaş Türkiyənin artan rolunun təcəssümü kimi dəyərləndirilir. İndiki reallıqlar şəraitində bu platforma Türkiyənin Avrasiya, Yaxın Şərq və Türk dünyası arasında bir körpü rolu oynadığını və yeni güc mərkəzinə çevrildiyini simvolizə edir. Forum regional və qlobal proseslərə güclü Türkiyənin ədalətə, beynəlxalq hüquqa əsaslanan vizionunu dünyaya nümayiş etdirir. Son illərin təcrübəsi də təsdiqləyir ki, qardaş ölkənin mövqeyi dünya gündəliyinin müxtəlif məsələlərinin həllində bir növ açar funksiyasını yerinə yetirir.

**ADF-nin tarixinə qısa baxış**

ADF ildən-ilə əhatə dairəsini genişləndirir. İlk dəfə 2021-ci ildə keçirilən Antalya Diplomatiya Forumuna ümumilikdə 11 dövlət və hökumət başçısı, 45 nazir qatılıb. Bundan əlavə, tədbirdə beynəlxalq təşkilatların yüksəksəviyyəli nümayəndələri, eləcə də biznes və akademik dairələrdən qonaqlar, 50-dən çox universitetin bakalavr, magistr və doktorantları da daxil olmaqla ümumilikdə 256 gənc iştirak edib. Forum çərçivəsində iki lider sessiyası, 15 panel iclas, 25 tədbir və iki gənclər forumu təşkil edilib.

2022-ci ilin 11-13 mart tarixlərində baş tutan növbəti Antalya Diplomatiya Forumu "Diplomatiyanın yenidən kodlaşdırılması" mövzusunda keçirilib. Tədbirdə ümumilikdə 17 dövlət və hökumət başçısı, 80 xarici işlər naziri və 39 beynəlxalq təşkilatın nümayəndəsi iştirak edib. Forum çərçivəsində Demokratik İdarəetmə, Liderlik və Diplomatiya, Enerji Təhlükəsizliyi, İrqçilik və ayrı-seçkiliklə mübarizə, Avropa üçün strateji muxtariyyət, Afrikada inkişaf, Latın Amerikası və Karib hövzəsi, Asiya-Sakit okean regionunda əməkdaşlıq və rəqabət, Dezinformasiyaya qarşı mübarizə, Qeyri-qanuni miqrasiya, Yaxın Şərqdə regional əməkdaşlıq, Terrorla mübarizə, İqlim Dəyişikliyi və Enerji keçidi və digər mövzularda panel müzakirələri təşkil olunub.

ADF-nin üçüncü konfransının ilk olaraq 2023-cü il martın 10-dan 12-dək "Sülh və Nizam üçün Effektiv Diplomatiya" mövzusunda keçirilməsi planlaşdırılırdı. Lakin 2023-cü ildə Türkiyə-Suriya zəlzələsi səbəbiylə üçüncü forumun keçirilməsi vaxtı ilin axırlarına, daha sonra isə 1-3 mart 2024-cü il tarixinə dəyişdirilib. Paralel şəkildə mövzu da yenilənib. Belə ki, 2024-cü ildə baş tutan üçüncü ADF üçün "Çətinliklər dövründə diplomatiyanın inkişafı" əsas müzakirə mövzusu kimi müəyyənləşdirilib.

Antalyada IV Diplomatiya Forumu 11-13 aprel 2025-ci il tarixində keçirilib. Forum "Parçalanan dünyada diplomatiyaya sahib çıxmaq" mövzusunu əhatə edib. Dörd mindən çox qonağın qatıldığı ADF2025-də dünyanın 140-dan çox ölkəsindən 20-dən artıq dövlət və hökumət başçısı iştirak edib. Tədbirə 50-dən çox ölkənin xarici işlər nazirləri, 70-dən artıq nazir qatılıb. Foruma, həmçinin təxminən 60 beynəlxalq təşkilatın yüksəksəviyyəli nümayəndələri təşrif gətirib. Forum çərçivəsində müxtəlif formatlarda 50-dən artıq tədbirdə Yaxın Şərqdən Asiya və Sakit okean hövzəsinə, Afrikadan Latın Amerikasına qədər geniş coğrafiyada qlobal çağırış və təhdidlərlə yanaşı, iqlim dəyişikliyi, ərzaq təhlükəsizliyi, rəqəmsallaşma, süni intellekt kimi dünya gündəmində mühüm yer tutan məsələlər ətrafında müzakirələr aparılıb.

**Dünyada V ADF-yə böyük maraq**

ADF yeni diplomatik platforma kimi yüksəliş dövründən keçir. Onu Qərb mərkəzli forumlara alternativ kimi də dəyərləndirmək mümkündür. Forum ilk növbədə Avrasiya, Yaxın Şərq, Afrika və Türk dünyası ölkələrinin diplomatik səslərini gücləndirməyə xidmət edir. Lakin onun rolu heç də Qlobal Şərqlə Qlobal Qərb arasında bölücülük yaratmaq deyildir. Əksinə, yeni platformanın əsas missiyası qütblər arasında diplomatiya yolu ilə körpülər formalaşdırmaqdır. Xüsusilə gənc mütəxəssislərin forumla əməkdaşlığa cəlb edilmələri təqdirəlayiqdir. Bu həm də o anlama gəlir ki, forum daxilində müzakirələr bugünkü reallıqlarla perspektivləri nəzərə alınmaqla aparılır. Forumda təqdim olunan çıxışlar və panel müzakirələri ölkələrin diplomatik strategiyalarını müəyyənləşdirməsində, tərəfdaşlıq axtarışlarında və regional sabitlik təşəbbüslərində mühüm rol oynayır.

Builki V Antalya Diplomatiya Forumuna dünyada böyük maraq olduğu izlənilir. Foruma hazırlıq çərçivəsində tədbirə 150-dən çox ölkədən 22 dövlət və hökumət başçısının, 14 dövlət və hökumət başçısının müavininin, 39-u xarici işlər naziri olmaqla 50-dən artıq nazirin, eləcə də 75-i beynəlxalq təşkilatların nümayəndəsi olmaqla ümumilikdə 500-dən çox yüksəksəviyyəli şəxsin qatılmasının gözlənildiyi barədə məlumat verilmişdi. Bildirilib ki, ayrı-ayrı sahələr üzrə təxminən 5 min nəfərin qatılacağı tədbir dünyanın müxtəlif ölkələrindən mindən artıq media mənsubu tərəfindən işıqlandırılacaq.

ADF 2026-da dövlət rəsmiləri ilə yanaşı akademiklər, iş dünyasının mütəxəssisləri, media və vətəndaş cəmiyyəti nümayəndələri bir araya gətirilərək qeyri-müəyyənliklərin ən yaxşı şəkildə idarə olunması, qlobal problemlərin həlli və gələcək çağırışlara hazırlıq yolları araşdırılacaq, mümkün həll yolları barədə fikir mübadiləsi aparılacaq və ən yaxşı təcrübə nümunələri paylaşılacaq. Builki tədbirdə Cənubi Qafqazdakı son vəziyyət də müzakirəyə çıxarılacaq mövzular arasında yer alır. Tədbir dialoqun təşviqi, etimadın yenidən bərpası və daha güclü əməkdaşlığın qurulmasını hədəfləyir.

**Azərbaycanın fəal iştirakı...**

Bu gün zirvədə olan Azərbaycan-Türkiyə dostluğunun sarsılmaz ruhuna uyğun olaraq respublikamız qardaş ölkənin liderliyi ilə ərsəyə gələn Antalya Diplomatiya Forumunda fəal iştirakçılığa malikdir. ADF Azərbaycanın hər cəhətdən müsbət reallıqlarını dünyaya təqdim etmək və unikal təcrübəsini bölüşmək üçün gözəl imkandır. Biz yuxarıda ADF-nin diplomatiya platforması olduğunu və dünyanı sülhə, sabitliyə çağırdığını vurğuladıq. Forumun missiyası ilə Azərbaycanın gündəliyi üst-üstə düşür. 44 günlük müharibədə və 23 saatlıq lokal xarakterli antiterror əməliyyatında şanlı zəfərlərə imza atmaqla Azərbaycan yalnız özünün ərazi bütövlüyünü və suverenliyini təmin etmədi. Bununla respublikamız eyni zamanda onilliklər boyunca müharibə riskləri ilə üz-üzə qalan Cənubi Qafqaz regionunda sülh və sabitlik üçün fundamental zəmin formalaşdırdı. Tarixdən bəllidir ki, müharibədə qalib gələn dövlətlər qarşı tərəfə şərtlər diqtə edirlər. Azərbaycan isə ortaya fərqli nümunə qoydu - heç bir iddia səsləndirmədən sülh yolu seçdiyini bəyan etdi və bu prosesi məntiqi sonluğa doğru inkişaf etdirməyə nail oldu. Məhz qalib Azərbaycanın, şəxsən Prezident İlham Əliyevin səylərinin nəticəsidir ki, bu gün Cənubi Qafqaz regionu heç vaxt olmadığı qədər sülhə yaxındır. Ölkəmizin keçdiyi yol dünya və çoxillik münaqişə vəziyyətində olan dövlətlər üçün nümunədir. Prezident İlham Əliyev digər nüfuzlu beynəlxalq platformalarda olduğu kimi Antalya Diplomatiya Forumunda da ölkəmizin təcrübəsini, sülh, əməkdaşlıq gündəliyini, regional və qlobal əhəmiyyətli layihələrdə fəal iştirakını özünə xas olan yüksək diplomatik məharətlə dünyanın diqqətinə çatdırır. Dövlətimizin başçısı IV ADF çərçivəsində qatıldığı çoxsaylı görüşlərdə və müzakirələrdə postmünaqişə dövründə Cənubi Qafqazda sülh təşəbbüslərinə, Zəngəzur dəhlizinin regional inteqrasiyaya təsirinə, Türk dünyasının vahid diplomatik strateqiyasının formalaşdırılmasına ehtiyac yarandığına, həmçinin respublikamızda həyat normasına çevrilmiş tolerantlıq mühitinə, Qlobal Qərblə Qlobal Şərq arasında körpü rolunu oynayan Bakı prosesinə diqqət çəkib.

Azərbaycan V Antalya Diplomatiya Forumunda da yüksəksəviyyəli nümayəndə heyəti ilə təmsil olunur. Prezident İlham Əliyevin ənənəvi olaraq Antalya Diplomatiya Forumunda iştirakı Azərbaycanın dünya siyasətində mühüm söz sahibi olan dövlətə çevrildiyini bir daha nümayiş etdirir. Bu, bir reallıqdır ki, hazırda Azərbaycan yalnız Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında rol almır, eyni zamanda davamlı olaraq sülh və diplomatiya təşəbbüsləri irəli sürməklə beynəlxalq birlikdə fəal mövqe tutur, regionun və dünyanın gələcəyinə öz töhfələrini verir.

***Mübariz ABDULLAYEV***



# Bakı-Əbu-Dabi strateji münasibətləri: perspektivdə nələr var?

## İki ölkə arasında “Hərtərəfli İqtisadi Tərəfdaşlıq Sazişi” rəsmi olaraq qüvvəyə minib

Azərbaycanın həyata keçirdiyi ardıcıl və praqmatik xarici siyasət kursu ölkənin beynəlxalq mövqelərinin möhkəmlənməsinə, etibarlı tərəfdaş kimi qəbul olunmasına geniş imkanlar yaradıb. Milli maraqlara söykənən, balanslaşdırılmış və çoxşaxəli xarakter daşıyan konseptual model ölkəmizin regiondan kənar coğrafiyalarla yaxınlaşması, siyasi-iqtisadi əlaqələrin daha da möhkəmlənməsi üçün zəmin formalaşdırıb. Xüsusilə yeni dünya nizamında aktual mövqe tutmağa başlayan Qlobal Cənub ölkələri ilə münasibətlərin dərinləşdirilməsi Bakının xarici siyasət prioritetlərində mühüm yer tutur - Azərbaycan bu platformada yalnız iqtisadi maraqlarını deyil, həm də ədalətli beynəlxalq münasibətlər, qarşılıqlı hörmət və bərabərhüquqlu əməkdaşlıq prinsiplərini fəal şəkildə təşviq edir.

Bu kontekstdə Yaxın Şərq regionunun mühüm aktorlarından biri olan Birləşmiş Ərəb Əmirlikləri ilə münasibətlər xüsusi diqqət çəkir. Son dövrlərdə Azərbaycan-BƏƏ əlaqələri keyfiyyətcə yeni mərhələyə qədəm qoyaraq sürətli inkişaf dinamikası nümayiş etdirir. Yüksək səviyyəli qarşılıqlı səfərlər, imzalanan strateji sənədlər və genişlənən iqtisadi-investisiya əməkdaşlığı bu münasibətlərin möhkəm siyasi təməl üzərində qurulduğunu təsdiqləyir. Energetika, bərpa olunan enerji, logistika, kənd təsərrüfatı, maliyyə və yüksək texnologiyalar sahələrində birgə layihələr iki ölkə arasında əməkdaşlığın real məzmununu daha da zənginləşdirir. Azərbaycanın postmünaqişə dövründə həyata keçirdiyi bərpa və yenidənqurma proseslərinə BƏƏ şirkətlərinin maraq göstərməsi də tərəfdaşlığın strateji xarakter daşıdığını göstərir. Beləliklə, Azərbaycan - BƏƏ münasibətləri Qlobal Cənub çərçivəsində formalaşan yeni əməkdaşlıq modelinin uğurlu nümunəsi kimi çıxış edərək, Bakının qlobal siyasətdə artan rolunu bir daha ön plana çıxarır.

**Saziş yeni imkanlar açacaq...**

Yeri gəlmişkən, “Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında Hərtərəfli İqtisadi Tərəfdaşlıq Sazişi” rəsmi olaraq qüvvəyə minib. Bu, iki dost ölkə arasında ticarət və investisiya münasibətlərinin inkişafında keyfiyyətcə yeni mərhələni ifadə edir. BƏƏ-nin rəsmi xəbər agentliyinin məlumatına görə, saziş ikitərəfli ticarət axınlarının sürətlənməsinə, yeni investisiya və birgə layihə imkanlarının yaradılmasına töhfə verir. Saziş çərçivəsində əksər mal və xidmətlər üzrə gömrük rüsumlarının ləğvi və ya azaldılması vasitəsilə hər iki ölkənin ixracatçıları üçün bazarlara daha geniş çıxış və qlobal imkanlar təmin olunacaq. Bununla yanaşı, özəl sektor daxilində əməkdaşlıq gücləndiriləcək, sahibkarlar və kiçik və orta bizneslər dəstəklənəcək. Saziş Azərbaycanın istehsal, emal, nəqliyyat və logistika sahələrində BƏƏ üçün sənaye və logistika tərəfdaşı kimi çıxış etməsinə imkan yaradır.

Qeyd edək ki, Azərbaycan ilə BƏƏ arasında hərtərəfli iqtisadi tərəfdaşlıq maliyyə, konsultasiya xidmətləri, tikinti və peşəkar xidmətlər kimi müxtəlif sahələrdə böyük imkanlar yaradacağı gözlənilir. BƏƏ-nin xarici ticarət naziri Sani bin Əhməd əl-Zeyudi bildirib ki, bu saziş BƏƏ ilə Azərbaycan arasında strateji münasibətlərin inkişafında mühüm mərhələdir. O qeyd edib ki, saziş ticarət axınlarının artırılmasına, yeni investisiya imkanlarının açılmasına və əsas sahələrdə, xüsusilə logistika, bərpaolunan enerji və qabaqcıl istehsalat sektorlarında özəl sektor əməkdaşlığının gücləndirilməsinə xidmət edir.

Nazir əlavə edib ki, bu saziş BƏƏ biznes dairələri üçün dünyanın ən mühüm inkişaf regionlarından birində yerləşən perspektivli iqtisadiyyatla ticarət və investisiya fəaliyyətini genişləndirmək baxımından yeni imkanlar açacaq.

**Ticarət dövriyyəsi artır...**

Xatırladaq ki, saziş Azərbaycan Prezidenti İlham Əliyevin ötən il iyulun 9-da BƏƏ-yə işgüzar səfəri çərçivəsində imzalanıb. Vurğulandığı kimi, bu saziş Azərbaycan ilə BƏƏ arasında iqtisadi əlaqələrin daha genişformatlı xarakter daşıması üçün mühüm perspektiv yaradır. Son illərdə yüksək temp qazanan ikitərəfli əlaqələr fərqli sahələri əhatə etməklə yanaşı, özünün keyfiyyətində də yeni bir mərhələ formalaşdırıb. Statistik rəqəmlərə nəzər yetirdikdə bu əlaqələrin dinamik xarakter daşıdığı daha aydın görünür. Ümumiyyətlə, iki ölkə arasında ticarət dövriyyəsi son illərdə sürətlə artmaqdadır. 2025-ci ilin ilk 9 ayında ticarət dövriyyəsi 125,9 milyon dolları keçərək 73,2 faiz artıb. Hesabat dövründə BƏƏ ilə ticarət əməliyyatları Azərbaycanın ümumi ticarət dövriyyəsinin 0,33 faizi həcmində olub. Azərbaycanın BƏƏ-yə qeyri-neft ixracı isə 2,1 dəfə artaraq 105,9 milyon dollara yüksəlib. BƏƏ və Azərbaycan arasındakı qarşılıqlı investisiyaların ümumi həcmi isə hazırda 1 milyard dollara çatıb. Bu ilin yanvar ayında Azərbaycanın Birləşmiş Ərəb Əmirlikləri ilə ticarət dövriyyəsinin ümumi həcmi 2025-ci ilin müvafiq dövrünə nisbətdə 32,9 faiz artaraq 13,3 milyon dolları üstələyib. İki ölkə arasında ticarət-iqtisadi əməkdaşlıq çox dinamik inkişaf edir. Münasibətlərin bütün dövrü ərzində Azərbaycan biznesi BƏƏ-nin iqtisadiyyatına 1 milyard dollara yaxın, BƏƏ isə ölkəmizin iqtisadiyyatına 3,3 milyard dollar sərmayə yatırıb.

**Bakı-Əbu Dabi əlaqələri...**

İki ölkə arasında kənd təsrrüfatı sahəsi üzrə əməkdaşlıq da son dövrlərdə geniş diapazon qazanıb - Azərbaycan məhsulları BƏƏ bazarında getdikcə daha çox yer almaqdadır. Xüsusilə meyvətərəvəz, fındıq və digər ərzaq məhsulları ixrac olunur. Turizm sahəsi üzrə də əməkdaşlıq günü-gündən artmaqdadır. Dubay və Əbu-Dabidə Azərbaycan vətəndaşlarının investisiya fəaliyyəti artmaqda, eyni zamanda, BƏƏ-dən Azərbaycana gələn turistlərin sayı çoxalmaqdadır. Paralel olaraq logistika və nəqliyyat məsələlərində də qarşılıqlı əlaqələr güclənir. Azərbaycanın tranzit imkanları BƏƏ-nin Çin və Mərkəzi Asiya bazarlarına çıxışında alternativ yol kimi dəyərləndirilir.

İqtisadi əlaqələrin əsas dayaq nöqtəsini isə enerji sektoru formalaşdırır. SOCAR və Abu Dabi Milli Neft Şirkəti (ADNOC) neft və qaz sektorunda möhkəm əlaqələr qurub. Bununla belə, iki ölkə “yaşıl” enerji sahəsində böyük səmərəli əməkdaşlıq formalaşdırıb. BƏƏ-nin aparıcı şirkəti Masdar ilə əməkdaşlığın nəticəsi kimi 2023-cü ilin oktyabr ayında Azərbaycanda 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyası (QES) istifadəyə verilib. Bu stansiya ildə 500 milyon kilovat-saat elektrik enerjisi istehsal etmək üçün nəzərdə tutulub və karbon qazı emissiyalarını 200 min tondan çox azaltmağı hədəfləyib. Bu isə əlaqələrə xüsusi rəng qatır.

**Perspektiv əməkdaşlıq...**

“Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında Hərtərəfli İqtisadi Tərəfdaşlıq Sazişi” gələcək əməkdaşlıq üçün həm də mühüm perspektiv və dividend vəd edir. Bu sənəd BƏƏ ilə qarşıdakı dövrdə müttəfiqlik üçün də olduqca vacib bir təməldir. Rəsmi şəkildə qüvvəyə minən sənəd strateji iqtisadi platforma yaradır. Bu saziş Azərbaycan və BƏƏ arasında ticarət, investisiya, sənaye əməkdaşlığı, texnologiya transferi, innovasiya və rəqəmsal iqtisadiyyat kimi sahələrdə kompleks əlaqələr formalaşmasında əsaslı rol oynayacaq. Bu cür iqtisadi əsaslı yaxınlaşma son nəticədə strateji tərəfdaşlığa, o cümlədən birgə müdafiə, texnoloji əməkdaşlıq və regional təşəbbüslərdə müttəfiqlik platformasına çevrilə bilər. Paralel olaraq Azərbaycanın BƏƏ ilə əlaqələrinin güclənməsi həm də Qlobal Cənubun inkişafına olduqca vacib komponentlər üzrə müsbət təsir göstərəcək - sənəd çoxtərəfli əməkdaşlığın mühüm nümunəsi kimi gələcək inkişafımızın daha da güclənməsinə töhfə verəcək...

***P.İSMAYILOV***

# Mənzil böhranının həlli üçün qlobal platforma

## WUF13 dayanıqlı şəhərlərin inkişafında yeni imkanlar yaradacaq

“Euronews” telekanalı may ayında Bakıda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasına (WUF13) hazırlıq işləri və bu qlobal tədbirin əhəmiyyəti haqqında reportaj hazırlayıb. Reportajda bildirilir ki, tədbirin əsas diqqəti qlobal mənzil böhranı məsələlərinə, sürətli urbanizasiya və əlçatan mənzilə artan ehtiyac şəraitində şəhərlərin inkişafına dair müasir yanaşmalara cəmlənəcək. Telekanal qeyd edir ki, bu gün bütün dünyada 1 milyarddan çox insan qənaətbəxş sayılmayan mənzil şəraitində yaşayır, eyni zamanda şəhər əhalisinin sürətli artımı, mənzillərin bahalaşması və demoqrafik təzyiq bütün dünyada şəhər sistemlərinə düşən yükü artırır. Belə bir şəraitdə WUF13 mənzil siyasəti, şəhər infrastrukturu və dayanıqlı inkişaf sahəsində praktiki həll yollarının müzakirəsi üçün beynəlxalq platforma rolunu oynamaqla, inklüziv və dayanıqlı şəhər inkişafı sahəsində təcrübə mübadiləsi və həll yollarının axtarışı üçün unikal model olacaq.

**Azərbaycan və UN-HABITAT şəhərsalmada yenilikləri təşviq edir**

Qlobal urbanizasiyanın artdığı şəraitdə şəhərlərin dayanıqlı və təhlükəsiz inkişafını təmin etmək Birləşmiş Millətlər Təşkilatına üzv dövlətlərin əsas hədəflərindən birinə çevrilib. Bu sahədə BMT-nin aparıcı təsisatı olan Məskunlaşma Proqramı (UN-HABITAT) ilə sıx əməkdaşlıq edən Azərbaycan bir sıra tədbirlər həyata keçirərək şəhərsalma ilə bağlı yenilikləri tətbiq edib. BMT-nin Məskunlaşma Proqramının icraçı direktoru Anaklaudiya Rossbax Azərbaycan ilə UN-HABITAT arasında faydalı əməkdaşlığı yüksək dəyərləndirib. Bu əməkdaşlıq çərçivəsində 2022-ci ildə Ağdam şəhərində, 2023-cü ildə Zəngilanda Milli Şəhərsalma forumlarının və Bakıda “Ümumdünya Məskunlaşma Günü” tədbirlərinin təşkilinin uğurlarına da toxunulub.

Məskunlaşma mövzusu hazırda gündəlikdə prioritetlər sırasında yer almaqla Azərbaycan və UN-HABITAT arasında əməkdaşlığın mühüm göstəricisi olduğunu, eyni zamanda tərəflərin urbanizasiyaya xüsusi həssas münasibətini təsdiqləyir. Anaklaudiya Rossbax şəhərlərin bərpası və inkişafı ilə bağlı yanaşmalara yenidən baxılmasının zəruriliyini xatırldaraq vurğulayıb ki, dünyanın bir çox regionlarında artıq əhəmiyyətli dərəcədə tikili mühiti mövcuddur. Bu amil inşa edilmiş olanlardan maksimum səmərəli istifadə etmək üçün son dərəcə vacibdir. Bu, iqlim dəyişikliyi kontekstində kritik əhəmiyyət daşıyır, çünki istənilən yeni tikinti tullantılarla bağlıdır və ya torpaq sahəsi tutur, bu isə sahib olduğumuz təbii resursları qorumaq zərurəti deməkdir. Təhlükəsiz və əlçatan mənzilə çıxış müasir şəhər inkişafının ən kəskin problemlərindən biri olaraq qalır, çünki mənzil siyasəti həyat keyfiyyətinə, sosial dayanıqlığa və icmaların inkişafına birbaşa təsir göstərir.




**“Yaşıl tikinti”yə keçid**

Müasir çağırışlar dövründə əsas tövsiyə və kriteriyalarından biri şəhərlərdə ekoloji və təmiz tikinti normativlərinin tətbiqidir. Məqsəd dünya ölkələrində aşağı karbonlu enerjiyə keçid çərçivəsində “yaşıl texnologiyalar”ın geniş tətbiqi yolu ilə sənaye layihələrinin sayını artırmaq, “yaşıl şəhər” və ya “yaşıl tikinti” layihələrini genişləndirməkdir. UN-HABITAT-ın bu çağırışlarına qoşulan bir çox ölkədə “yaşıl tikinti” texnologiyalarından istifadə geniş vüsət alıb və hazırda daha da təkmilləşdirilir. Mütəxəssislərin hesablamalarına görə, tikinti sektorunun ətraf mühitə təsirləri təxminən avtonəqliyyat vasitələrinin vurduğu zərərə yaxındır. İnşaat sənayesində istifadə olunan texnologiyaların böyük bir qismi ətraf mühitə yanacaq emissiyalarında rol oynayır. BMT-nin Ətraf Mühit Proqramının icraçı direktoru İnger Andersenin sözlərinə görə, təkcə dünyada 25 meqapolis şəhər qaz emissiyalarının buraxılmasında 52 faiz paya malikdir. Bu problemi həll etmək yeni nəqliyyat, elektromobil və şəhər konsepsiyaları tətbiq olunmalıdır. Bunun ən optimal yollarından biri “yaşıl şəhər” layihələrinə keçidi sürtələndirməkdir.

Yeri gəlmişkən, “yaşıl tikinti”yə keçid qlobal iqlim alyansının fəal üzvlərindən biri kimi Azərbaycan üçün də gündəlikdə duran əsas məsələlərdən biridir. “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”də 5-ci prioritet istiqamət “Təmiz ətraf mühit və “yaşıl artım” ölkəsi” kimi müəyyən olunub. Sənəddə ekoloji təmiz texnologiyaların tətbiqinə əhəmiyyətli yer verilməsi, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpasının təşviqi, ekoloji baxımdan əlverişli olan “yaşıl texnologiyalar”ın tətbiqinin genişləndirilməsi ilə bağlı qarşıya konkret tapşırıqlar qoyulub.

**Azad ərazilərdə müasir şəhər quruculuğu**

UN-HABITAT işğaldan azad olunmuş ərazilərin yenidən qurulması və bərpası, keçmiş məcburi köçkünlərin dayanıqlı məskunlaşmasının təmin edilməsi istiqamətində də Azərbaycanla əməkdaşlıqda maraqlıdır. Azad ərazilərdə də Bakıda bir neçə dəfə Milli Şəhərsalma Forumunun keçirilməsi BMT-nin ali qurumlardan birinin azad ərazilərdə yeni urbanizasiyaya xüsusi diqqətinin göstəricisi hesab oluna bilər. Bu tədbirlər həm də bölgədə davamlı şəkildə “ağıllı şəhərlərin” qurulması ilə bağlı strategiyaların həyata keçirilməsində yeni imkanlar yaratmaqdadır.

Təsadüfi deyildir ki, işğaldan azad edilmiş ərazilərdə müasir şəhər quruculuğu və bərpa işləri BMT-nin “Dayanıqlı inkişaf məqsədləri” təşəbbüsünün prinsipləri əsasında həyata keçirilir. Azərbaycan Prezidentinin Ağdam, Füzuli və Xocavənd rayonlarındakı xüsusi nümayəndəsi Emin Hüseynov qeyd edib ki, müasir layihələr təkcə mənzillə təminata deyil, həm də dayanıqlı icmaların formalaşdırılmasına yönəlib. Mənzil siyasəti daha geniş sosial-iqtisadi səmərəyə malikdir və bunu hər bir ölkə, o cümlədən Azərbaycan hökuməti də yaxşı başa düşür. Burada məqsəd sadəcə ev tikmək deyil, həm də mənsubiyyət hissi yaratmaq, faktiki olaraq dayanıqlı icmalar üçün əsas formalaşdırmaqdır. Bu prinsiplər azad ərazilərdə inşa edilən yaşayış məskənlərinin sosial-iqtisadi strukturunda da açıq şəkildə öz müsbət təsirlərini biruzə verir.

Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonundakı xüsusi nümayəndəsi Aydın Kərimov isə öz növbəsində bərpa layihələrinin həyata keçirilməsi ilə bağlı təşkilati və zamanla əlaqədar çağırışları qeyd edib. Bildirib ki, müəyyən çağırışlarla üzləşdiyimiz bu dövrdə ən başlıca amil yaşayış obyektlərinin və binalarının tikintisinin təşkili idi ki, Azərbaycan hökuməti bunun qarşısından ən yaxşı formada gəlməyi bacardı. Bu quruculuq salnaməsinin uğurlarının nəticədir ki, bölgədə ard-arda yeni yaşayış binaları və qəsəbələr istifadəyə verilir və şəhərlər sakinlərin istifadəsinə verilir. Bu gün Şuşada 1400 nəfər yaşayır ki, bu da təxminən 377 ailə deməkdir və nailiyyətlərin göstəricisidir.

**Etimadın və etibarın ünvanı**

Göründüyü kimi, Azərbaycan ilə BMT-nin Məskunlaşma Proqramı, digər şəhərsalma üzrə innovativ korporasiyalarla səmərəli əməkdaşlığın nümunəvi platformasına çevrilməkdədir və bu təşəbbüskarlıq ölkəmizə inam və etimad daha da artırır. Bu baxımdan təşkilat ən mötəbər tədbirlərini ölkəmizdə təşkil etməyə üstünlük verir. Bunun təzahürlərindən biri kimi 2026-cı ilin mayında BMT-nin ən yüksək səviyyəli tədbirlərindən biri olan 13-cü Ümumdünya Şəhərsalma Forumu Azərbaycana həvalə edilib.

Beləliklə, WUF13 Azərbaycan və beynəlxalq təşkilatlar, ölkələr və şəhərsalma icması arasında möhkəm əməkdaşlıq formatını yaratmaqla, gələcək inkişafın və rifahın əsas qüvvəsi olan şəhərlərin davamlı inkişafında yeni meyar və prinsipləri tətbiq etmək, eyni zamanda dünya ölkələri ilə bu sahədə fəal əməkdaşlığı əlaqələndirmək baxımından uğurlu platforma rolunu oynayacaq.

***E.CƏFƏRLİ***

# Azərbaycan - Rusiya münasibətləri qarşılıqlı etimada əsaslanır

## Tərəflər daşınmaları artırmaq üçün "Yol Xəritəsi" sənədini imzalayıb

Zəngilanda keçirilən Azərbaycan-Rusiya iqtisadi əməkdaşlıq məsələləri üzrə Dövlət Komissiyasının 24-cü iclasında ölkələr arasında münasibətlərin vəziyyəti və gələcək inkişaf yolları müzakirə olunub. Hökumətlərarası Komissiyanın Rusiya tərəfindən sədri, Rusiya hökumətinin sədr müavini Aleksey Overçuk bildirib ki, yaxın qonşu və dost ölkələr olan Azərbaycan və Rusiya qarşılıqlı hörmət və faydalı əməkdaşlıq prinsiplərinə sadiq qalaraq siyasi, iqtisadi, humanitar sahələrdə əlaqələri inkişaf etdirir. Tərəflər arasında ticarət, investisiya, maliyyə, nəqliyyat, kənd təsərrüfatı, energetika, turizm və humanitar sahələrdə əməkdaşlığın mövcud vəziyyəti olduqca qənaətbəxşdir və hədəflər üzrə nəzərdə tutulan layihələrin icrası daha yaxşı perspektivlər vəd edir.

Azərbaycan və Rusiya regionun coğrafiyasını dəyişən müasir nəqliyyat marşrutlarında sıx tərəfdaşdır, nəqliyyat-logistikanın aparıcı arxitekturasına çevrilmiş "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafı təkcə bu, iki ölkə üçün deyil, digər partnyorlar üçün də strateji əhəmiyyət daşıyır. Hazırda iştiraçı ölkələr bu dəhliz üzrə infrastrukturun modernləşdirilməsi və rəqəmsallaşdırılması yönündə iradəli addımlar atmaqdadır, bu isə bölgədə yükdaşımaların həcminin əhəmiyyətli dərəcədə artmasına səbəb olacaq. Dəhlizlə 2028-ci ildən etibarən Azərbaycan ərazisindən illik daşımaların həcmi azı 5 milyon ton, sonrakı mərhələdə isə 15 milyon ton səviyyəsinə çatdırılacağı gözlənilir.

Rusiya Federasiyası Hökuməti sədrinin müavini Azərbaycan-Rusiya əməkdaşlığının strateji xarakter daşıdığını xatırladaraq ölkəmizin azad edilmiş ərazilərdə aparılan sürətli quruculuğu yüksək dəyərləndirib, bu ərazilərin iki ölkə arasında birgə layihələr üçün yeni imkanlar yaratdığını vurğulayıb. O, Azərbaycan-Rusiya münasibətlərinin qarşılıqlı hörmət, etimad və tərəfdaşlıq prinsipləri əsasında inkişaf etdiriləcəyi, əldə olunmuş razılaşmaların ardıcıl şəkildə icrasının davam etdiriləcəyi vurğulanıb.

### Azərbaycan regionda humanitar kommunikasiya mərkəzinə çevrilir

Son illər ərzində Azərbaycan və Rusiya münasibətlərinin uğurunu təmin edən əsas amillərdən biri əlaqələrin dövlətlərin müstəqilliyi, ərazi bütövlüyü, bərabərhüquqluq və bir-birinin daxili işlərinə müdaxilə etməmək prinsipləri əsasında qurularaq inkişaf etdirilməsidir. Bu, hər iki tərəfin regional proseslərdə baş verən situasiyalara baxmayaraq, münasibətləri sabit şəkildə qoruyub saxlamasında da özünü göstərir. A.Overçuk regionda baş verən geosiyasi proseslərə diqqət çəkərək Rusiya Federasiyası tərəfindən İran İslam Respublikasına göndərilmiş humanitar yardımın Azərbaycan ərazisindən keçərək ünvana çatdırılmasında göstərdiyi yardıma görə təşəkkürünü bildirib. Eləcə də, Azərbaycanın regional sabitliyə və humanitar əməkdaşlığa verdiyi töhfələrə toxunaraq, İran ərazisindən Rusiya vətəndaşlarının təxliyəsində göstərilən operativ dəstək, eləcə də Rusiya humanitar yardımının Azərbaycan ərazisindən tranziti üçün yaradılan şəraiti təqdir edib. Həmçinin Rusiyadan Azərbaycan ərazisi vasitəsilə Ermənistana yüklərin daşınması ilə bağlı məhdudiyyətlərin aradan qaldırılmasını xüsusi müsbət addım hesab edərək bu humanitar inteqrasiyaların regionda etimadın möhkəmləndirilməsinə və nəqliyyat-logistika əməkdaşlığının genişlənməsinə daha böyük töhfə verəcəyinə əminliyini ifadə edib. Hazırda Azərbaycan ərazisindən tranzitlə Ermənistana təxminən 26 min ton yük daşınıb ki, bu da fasiləsiz nəqliyyat axınının işə düşdüyünü göstərir.



Azərbaycanın Baş nazirinin müavini vurğulayıb ki, azad ərazilərdə aparılan işlərə diqqət çəkərək bildirib ki, işğal dövründə tamamilə dağıdılmış infrastruktur hazırda müasir standartlara uyğun şəkildə bərpa olunur, yollar, körpülər, tunellər, inşa edilir, yaşayış və sosial obyektlər yaradılır. Həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma işlərində xarici ölkələrin şirkətləri də yaxından təmsil olunmaqdadır və bu prosesdə rus şirkətləri üçün də geniş fəaliyyət meydanı yaradılıb.

### Rusiya Zəngəzur dəhlizi ilə region ölkələrinə daha rahat çıxış əldə edəcək

Rusiya bir neçə ildir ki, bölgədə sənaye infrastrukturunun qurulmasına öz dəstəyini göstərməkdədir. Araz vadisi iqtisadi zonasında "KamAZ" servis mərkəzinin və Qubadlının Mahruzlu kəndində Həştərxan qubernatorluğu tərəfindən uşaq bağçasının tikintisi bu əməkdaşlığın nümunəsi olmaqla, digər layihələr üçün də motivasiyaedici rol oynayır.

Azərbaycan-Rusiya iqtisadi əməkdaşlıq məsələləri üzrə Dövlət Komissiyasının 24-cü iclasının iştirakçıları Zəngilan şəhərində, Ağalı kəndində olub, Ağbənd avtomobil körpüsü, Horadiz-Ağbənd dəmir yolu layihəsi, habelə sərhəd-keçid məntəqəsinin infrastrukturunun tikintisi ilə tanış olublar. Aleksey Overçuk bu nəqliyyat infrastrukturlarının əhəmiyyətinə toxunaraq bildirib ki, Ağbənd körpüsü həm "Şimal-Cənub", həm də "Şərq-Qərb" dəhlizlərinin əsas elementi olacaq. Ümumiyyətlə, bölgədə yaradılan yeni müasir avtomobil və dəmir yolları və Horadiz-Ağbənd dəmir yolu Zəngəzur dəhlizinin mühüm halqasını formalaşdırmaqla, Beynəlxalq Nəqliyyat Dəhlizinin işini təmin edəcək.

A.Overçuk vurğulayıb ki, Rusiya bu infrastrukturun mümkün qədər tez istifadəyə verilməsində maraqlıdır: Çünki bu, müasir infrastruktur rusiyalı sürücülər üçün rahat olacaq. Onlar yükləri İran, Naxçıvan və Türkiyə istiqamətində daha səmərəli şəkildə daşıya biləcəklər. Hesab edirəm ki, bu layihə iştirakçı bütün ölkələr üçün qarşılıqlı fayda verəcək və regional əməkdaşlığın daha da genişlənməsinə xidmət edəcək.

### Rusiyanın iri şirkətləri azad ərazilərdə

Hökumətlərarası Komissiyanın Azərbaycan tərəfindən sədri, Baş nazirin müavini Şahin Mustafayev isə bildirib ki, Azərbaycan Rusiya ilə münasibətdə mehriban qonşuluq, qarşılıqlı anlaşma və bərabərhüquqlu tərəfdaşlıq prinsiplərinə sadiqdir. İkitərəfli əməkdaşlığın ardıcıl və dinamik inkişafı prezidentlər İlham Əliyev və Vladimir Putin tərəfindən həyata keçirilən siyasi iradə və strateji kursla müəyyən olunur. Xüsusilə 2022-ci ildə imzalanmış müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə ikitərəfli münasibətlərə mühüm təkan verir. Eləcə də dövlət başçılarının ötən ilin oktyabrında Düşənbədə keçirilmiş görüşü ikitərəfli əməkdaşlığa yeni təkanverici təsir göstərib, habelə mart ayında Bakıda baş tutmuş yüksəksəviyyəli təmaslar ikitərəfli münasibətlərin dinamikasını praktik olaraq yaxşılaşdırıb. Hazırda bölgədə mürəkkəb regional şəraitdə baxmayaraq, dövlətlər arasında əməkdaşlıq davamlı inkişaf tempini qoruyub saxlayır.




Ş. Mustafayev vurğulayıb ki, Azərbaycan-Rusiya münasibətlərinin əsas istiqamətlərindən biri ticarət-iqtisadi əməkdaşlıqdır. 2025-ci ildə iki ölkə arasında ticarət dövriyyəsi 4,9 milyard ABŞ dollarına çatıb. Eləcə də kənd təsərrüfatı məhsulları üzrə ticarətin dinamikasının artması Rusiya bazarının Azərbaycan qeyri-neft ixracının əsas istiqamətlərindən biri olaraq qaldığını təsdiqləyir. Hazırda Rusiya Federasiyasında Azərbaycanın ticarət nümayəndəliyi fəaliyyət göstərir, ticarət evləri mexanizmi tətbiq olunur. Azərbaycan məhsulları "Made in Azerbaijan" vahid stendi ilə Rusiyada keçirilən "Worldfood", "Prodexpo", "MosBuild" sərgilərində nümayiş etdirilir.

Ölkəmiz Rusiya ilə sənaye, investisiya sahələrində də səmərəli əməkdaşlıq həyata keçirir. Bu baxımdan, "SOCAR Polymer" layihəsi, Pirallahı Sənaye Parkında əczaçılıq müəssisəsinin yaradılması, Gəncə Avtomobil Zavodunun Rusiyanın "Kamaz" və "Ural" zavodları ilə əməkdaşlığı, "Azərmaş" və "QAZ" şirkətləri arasında birgə layihələrin həyata keçirilməsi qarşılıqlı sərmayə yatırılması sahəsində əhəmiyyət kəsb edir.

İnvestisiya əməkdaşlığının müsbət dinamikası da xüsusi əhəmiyyət kəsb edir. Rusiyanın Azərbaycana yatırdığı ümumi investisiyaların həcmi 10,5 milyard dolları, o cümlədən qeyri-neft sektorunda 2,9 milyard dolları ötüb. İnvestisiya əməkdaşlığı müsbət dinamika nümayiş etdirir və Azərbaycanda 1400-dən çox Rusiya şirkəti fəaliyyət göstərir. Eyni zamanda, Azərbaycan investisiyalarının da Rusiya iqtisadiyyatında mövqeləri möhkəmlənir, sanatoriya, sənaye və istehsal layihələri uğurla icra olunur.

### Qarşılıqlı investisiyaların təşviqində yeni addım

Azərbaycan və Rusiya mövcud imkanlardan qarşılıqlı şəkildə faydalanmaq, ticarət proseslərini daha da asanlaşdırmaq üçün gömrük və sərhədkeçid infrastrukturunun təkmilləşdirilməsi, prosedurların sadələşdirilməsi, yükdaşımaların həcminin artırılması və digər bu kimi mühüm istiqamətlərdə ardıcıl addımlar atılır. Bu tədbirlərin davamı kimi Hökumətlərarası Dövlət Komissiyasının 24-cü iclası çərçivəsində Azərbaycan Respublikasında və Rusiya Federasiyasında avtomobil nəqliyyatı üçün elektron beynəlxalq yük qaiməsinin (e-CMR) tətbiqi üzrə şəraitin yaradılmasına dair "Yol Xəritəsi"nə dair sənəd imzalanıb. Sənəd ölkələrimiz arasında ticarət-iqtisadi əməkdaşlığın genişləndirilməsini, qarşılıqlı investisiyaların təşviqini, eləcə də müxtəlif sahələr üzrə birgə layihələrin həyata keçirilməsini nəzərdə tutur. Yekunda Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Dövlət Komissiyasının 24-cü iclasının nəticələrinə dair Protokol imzalanıb.

Beləliklə, Hökumətlərarası Dövlət Komissiyasının 24-cü iclasında müzakirə edilən mühüm məsələlər və qəbul edilən qərarlar Azərbaycan və Rusiya arasında münasibətlərin inkişafında yeni mühüm mərhələ açmaqla, iqtisadi imkanların qarşılıqlı mübadiləsinə töhfələr verəcək.

*E.CƏFƏRLİ*

# ICAO və Dövlət Mülki Aviasiya Agentliyi arasında təlim xidmətlərinə dair razılaşma imzalanıb




Mərakeş şəhərində keçirilən Beynəlxalq Mülki Aviasiya Təşkilatının (ICAO) 5-ci "Qlobal İcra Dəstəyi Simpoziumu" çərçivəsində rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Samir Məmmədovun rəhbərlik etdiyi Azərbaycan nümayəndə heyəti ilə ICAO Şurasının prezidenti Toşiyuki Onuma və ICAO-nun baş katibi Xuan Karlos Salazar arasında görüş keçirilib.

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan tərəfi ölkəmizdə aviasiyanın inkişafı, eləcə də dayanıqlı aviasiya yanacağı ilə bağlı ACT-SAF proqramı və "Ələt Yaşıl Hava Limanı" layihəsi təşəbbüsləri daxil olmaqla ICAO ilə əməkdaşlığın hazırkı vəziyyəti barədə məlumat verib. Həmçinin ICAO və Dövlət Mülki Aviasiya Agentliyi arasında təlim xidmətlərinə dair razılaşma imzalanıb.

Azərbaycan nümayəndə heyəti ilə Mərakeş Krallığının nəqliyyat və logistika naziri Abdessamad Kayuh arasında da görüş keçirilib.

Görüşdə nəqliyyat sahəsində qarşılıqlı maraq doğuran məsələlər və əməkdaşlığın genişləndirilməsi perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

Həmçinin iki ölkə arasında müntəzəm uçuşların açılması və hava əlaqələrinin inkişaf etdirilməsinin vacibliyi vurğulanıb. Mülki aviasiya sahəsində əməkdaşlığın hüquqi çərçivəsinin formalaşdırılması məqsədilə hava əlaqəsi haqqında hökumətlərarası sazişin qısa müddətdə imzalanması barədə razılıq əldə olunub.

# Türk İnvestisiya Fondu Dünya Bankı Xəzinədarlığının qlobal RAMP şəbəkəsinə qoşulub

Türk xalqları tərəfindən birgə yaradılan ilk beynəlxalq maliyyə qurumu olan Türk İnvestisiya Fondu Dünya Bankı Xəzinədarlığının Ehtiyat Məsləhət və İdarəetmə Tərəfdaşlığı (RAMP) şəbəkəsinə daxil olub.

AZƏRTAC Türk İnvestisiya Fondunun son açıqlamasına istinadla xəbər verir ki, Fond çərşənbə günü Vaşinqtonda keçirilən imzalanma mərasimindən sonra tərəfdaşlığın bu maliyyə qurumuna xəzinədarlıq və risklərin idarə edilməsi sahəsində ən yaxşı qlobal təcrübələrə birbaşa çıxış imkanı verəcəyini bəyan edib.

Saziş nou-hau paylaşılmasına, texniki əməkdaşlığa, habelə likvidliyin və xəzinədarlığın idarə edilməsi kimi vacib funksiyalar üzrə əməliyyat müqayisəsinə yönəlib.

Fondun baş direktoru Ramil Babayev bu inkişafları qurum üçün strateji dönüş nöqtəsi adlandırıb. "Saziş bizə xəzinədarlıq funksiyamızı möhkəm təməl üzərində qurmağa və regional perspektivimizi qlobal icti-maiyyətə təqdim etməyə imkan verəcək", - deyə o bildirib.

Dünya Bankı Qrupunun vitse-prezidenti və baş xəzinədarlıq direktoru Jorj Familiar bildirib ki, beynəlxalq maliyyə qurumları RAMP icmasının getdikcə daha vacib bir hissəsinə çevrilir. Onun sözlərinə görə, Türk İnvestisiya Fondunun bu platformaya qoşulması ilə tərəfdaşlığın böyüməsi şəbəkənin inkişafla əlaqəli investorlar üçün əhəmiyyətini göstərir.

Türk İnvestisiya Fondunun RAMP şəbəkəsində iştirakının qlobal şəbəkənin ortaq perspektivlərini və strategiyalarını zənginləşdirəcəyi gözlənilir.

Qeyd edək ki, Türk İnvestisiya Fondu (TİF) ilkin kapitalı 500 milyon ABŞ dolları olan Türk dünyası iqtisadi inteqrasiyasının ilk birgə maliyyə institutudur. Fond türk dövlətləri arasında iqtisadi və kommersiya əlaqələrini təşviq etməyi hədəfləyir.

# Hörmüzdə boğaza yığılan dünya...

## Kilidin açarı kimdədir?

### Hörmüz boğazında “nəfəs darlığı” - enerji arteriyası üzərində geosiyasi planlar

Uğursuz 21 saatlıq İslamabad danışıqlarınının ardından aktivləşən Hörmüz blokadası 4 gündür davam edir. Belə ki, ABŞ Mərkəzi Komandanlığı (CENTCOM) Donald Trampın əmri ilə aprelin 13-ü, Bakı vaxtı ilə saat 18:00-dan etibarən İran limanlarına qarşı rəsmi hərbi blokadaya başladığını elan edib. Əməliyyatın icrası üçün ABŞ Hərbi Dəniz Qüvvələrinin raket daşıyan esminsetləri Hörmüz boğazı və Fars körfəzi ətrafında döyüş mövqeyi tutublar. CENTCOM-un bəyanatına görə, blokada gəmilərin mənsubiyyətindən asılı olmayaraq bütün ölkələrə şamil edilir. İranın sahil sularına və limanlarına daxil olan və ya oradan çıxan istənilən gəmi ABŞ hərbi gəmiləri tərəfindən saxlanılır. Komandanlıq bildirib ki, hər bir raket esminsetində 300-dən çox xüsusi təlim görmüş dənizçi xidmət edir. Bu heyət həm hücum, həm də müdafiə əməliyyatlarını ən yüksək səviyyədə icra etmək üçün təchiz olunub.

### ABŞ “bağlıdır” deyir, İran isə gəmi keçirdiyini iddia edir

Proseslərin inkişafından məlum olur ki, ABŞ blokadanı  yalnız İranı iqtisadi cəhətdən “boğmaq” üçün təşkil edib - Hörmüz boğazından digər ölkələrin (BƏƏ, Səudiyyə Ərəbistanı, Küveyt və s.) limanlarına gedən gəmilərin hərəkətinə maneə törədilmir, lakin onlar ciddi yoxlamalardan keçir. Bu, ABŞ-ın mövqeyidir.

Yayılan xəbərlər isə ABŞ-ın bu hədəsinin əbəs olduğunu göstərir - belə ki, Vaşinqtonun sanksiya siyahısında olan İranın supertankeri Hörmüz boğazından keçərək maneəsiz şəkildə ölkənin ərazi sularına daxil olub. 2 milyon barelə qədər neftdaşıma qabiliyyətinə malik olan “VLCC” sinfinə məxsus gəmi Vaşinqtonun məhdudiyyətlərinə və xəbərdarlıqlarına baxmayaraq, izləmə sistemini söndürmədən açıq şəkildə keçid edib.

“Fars” agentliyinin yaydığı məlumata görə, Tehran bu hadisəni ABŞ-ın İran limanlarına doğru gəmiçilik hərəkətlərini bloklamaq barədə bəyanatlarının uğursuzluğunun nümayişi kimi qiymətləndirib. Rəsmi dairələr tankerin sərbəst hərəkətini sanksiya rejiminin səmərəsizliyinin sübutu hesab edirlər.

### Boğaz böhranı Çinə “uzansa”...

Beləliklə, ortaya sual çıxır - hazırda Hörmüz boğazı kimin nəzarətindədir? Ümumiyyətlə, hansısa bir dövlətin bu boğazı “şəxsi mülkü” elan etməsi nə dərəcədə həm qanunauyğun, həm də realdır? Ən əsası isə - niyə, Hörmüz bu qədər həyati əhəmiyyətlidir. Təhlil çevrəsini genişləndirsək, Hörmüzlə bağlı maraqlarını ifadə edən tərəflərin yalnız İran və ABŞ-dan ibarət olmadığını görərik - məsələyə Avropa İttifaqı, Çin, hətta Rusiya da “həssas” yanaşır. Bunun səbəbi isə tək neft daşınması deyil - ortada daha fərqli məntiq və ya ssenari ola bilər.

Bəlli olduğu kimi, aprelin 17-də İtaliyanın Baş naziri Giorgia Meloni, Fransa Prezidenti Emmanuel Makron, Böyük Britaniyanın Baş naziri Keir Starmer və Almaniya Kansleri Fridrix Mertsin Hörmüz boğazında naviqasiya azadlığını təmin etmək üçün mümkün Avropa missiyasını müzakirə edəcəyi bildirilir. Bu barədə La Repubblica qəzeti məlumat verib. Qəzetin məlumatına görə, Paris görüşünün səbəbi Avropa liderlərini İranla bağlı mövqelərinə görə günahlandıran Trampla münaqişə səbəb olub.

CNN isə yazır ki, Hörmüz boğazını bağlamaqla ABŞ Çinin və Hindistanın İrana təzyiqinə nail olmaq niyyətindədir. “Bu əməliyyatın (ABŞ-ın Hörmüzü blokadaya alması) məqsədlərindən biri Tehranı danışıqlar masasına qayıtmağa məcbur etmək üçün Çin və Hindistan kimi İran nefti alan ölkələrə təzyiq göstərməkdir”, - kanal bildirib. Lakin qeyd edilir ki, Çin məsələsində ABŞ ciddi risk götürür, çünki ABŞ gəmiləri tərəfindən İran nefti daşıyan Çin tankerinin ələ keçirilməsi ABŞ Prezidentinin Pekində Çin Prezidenti ilə çoxdan gözlənilən görüşündən həftələr əvvəl diplomatik insidentə səbəb ola bilər. Başqa sözlə, Hörmüz yeni bir siyasi, iqtisadi və hətta hərbi böhrana yol aça bilər.

### İran nefti yığmağa yer axtarır, ABŞ isə gündə 2 milyard dollar xərcləyir

Bəs bu blokada İrana necə təsir göstərir? “Reuters” FGE NexantECA




konsaltinq şirkətinin hesablamalarına istinadən xəbər verib ki, İran ixrac olmadan 2 ay ərzində neft hasilatını hazırkı səviyyədə saxlamaq gücünə malikdir. Enerji və kimya sənayesində analitik və konsaltinq xidmətləri göstərən şirkətin qeydinə görə, “İran ixrac etmədən təxminən iki ay ərzində 3,5 milyon barel səviyyəsində hazırkı neft istehsalını qoruya və daha sonra təxminən 3 ay ərzində istehsalını gündə 500 min barel azalması şərti ilə  saxlaya bilər”. “Financial Times”ın istinad etdiyi Fransanın ətraf mühit təşkilatı “Kayrros”-un məlumatlarına görə, İranın neft saxlama obyektləri 49 faiz boşdur.

Beləliklə, Trampın da bildirdiyi kimi “müharibə bitib”sə, demək blokada 5 ay sürsə belə, İranın rezervuarları istehsal olunan nefti qəbul etmək gücündədir.

Blokadanı 5 ay davam etdirmək ABŞ-a “sərf” edəcəkmi? Nümayəndələr Palatasının keçmiş üzvü Marcori Teylor-Qrinin hesablamalarına görə, ABŞ İranla münaqişəyə gündə təxminən 2 milyard dollar xərcləyir. “Biz əksər amerikalıların vergi ödədiyi və hökumətimizin İrandakı müharibəyə gündə təxminən 2 milyard dollar xərclədiyi günləri yaşayırıq. Amerikalılar hazırda yanacaqdoldurma məntəqəsində hər qallon (1 qallon təxminən 3,8 litrdir) yanacaq üçün orta hesabla 4 dollardan çox pul ödəyir  - bunun qarşılığında isə bir çox amerikalı tibbi sığorta ala bilmir. Bu, baş verməməli idi”, - deyə o, “X”-da yazıb.

### Enerji bazarı bu gün - sabah üçün ümid edilir...

Baş verənlər qlobal enerji bazarına böyük təsir göstərib. Neft ixracının 30 faizinə “mənsub” Hörmüzün bağlı qalması axınların pozulmasına səbəb olub -  daşınmalarda 1 gündə təxminən 16 milyon barel kəsir var. Ekspertlərin hesablamalarına görə, qlobal dünya hazırki vəziyyətə 60 gün dözməyə hazır deyil. Ehtiyatların tükənmə sürətinin texniki həddi də məlum deyil - ümumilikdə, gündə 1-5 milyon barel təklif kəsiri yarana bilər. Bu isə bir çox dövlətləri, daha çox isə Avropanı narahat edir. Amma onlar ümidini tam kəsməyiblər - missiya yaratmaq təklifi də buradan qaynaqlanır. Avropalı ekspertlər yazır ki, normallaşma baş verməsə, neft qiymətləri 1 barel üçün 150-200 dollara qədər arta bilər.

Qazla bağlı vəziyyət də ürəkaçan deyil - xüsusən də mayeləşdirilmiş təbii qazla bağlı vəziyyət daha pisdir. Hörmüzün bağlanması ilə yanaşı, aparıcı istehsal infrastrukturuna da ziyan dəyib. Qətərdə yerləşən və dünyanın ən böyük mayeləşdirilmiş təbii qaz istehsal müəssisəsi sayılan zavodun 14 istehsalı xəttinin ikisi dağılma səbəbindən bağlanıb. Qətər artıq İtaliya, Belçika, Cənubi Koreya və Çinlə əsas müqavilələr üzrə fors-major vəziyyət elan edib. BƏƏ boğazlardan keçməyin mümkün olmaması səbəbindən Das adasında mayeləşdirilmiş təbii qaz ixracını faktiki olaraq dayandırır. İsrail öz yataqlarında istehsalı dayandırıb ki, bu da artıq Misirdə azot gübrəsi istehsalının bağlanmasına səbəb olub. Mayeləşdirilmiş təbii qaz tankerlərinin yükdaşıma tarifləri təxminən 600 faiz artıb, sığorta haqları isə gəminin dəyərinin 0,25 faizindən 3 faizə qədər artıb. Rəqəmlər vəziyyətin ciddiliyin açıq şəkildə ortaya qoyur. Belə bir vəziyyətdə, Hörmüzə kimin nəzarət etməsi heç nəyi dəyişmir - tam əksinə, nəzarət savaşı qlobal iflasa doğru aparır.

Bir maraqlı məqam isə Hörmüzə “tarixi nəzarət funksiyası” müzakirəsidir. Əksər politoloqlar İran da daxil olmaqla bəzi dövlətlərin özünü “boğazın sahibi” elan etməsini düzgün hesab etmir. Hörmüz boğazı Ərəbistan dənizində Fars körfəzi ilə Oman körfəzini birləşdirən dar su yoludur. Təxminən 167 kilometr uzunluğundadır və ən dar nöqtəsi cəmi 39 kilometr enindədir. Müqayisə üçün, bu, ingilis kanalının eninin təxminən yarısı qədərdir. Ən əsası isə - boğaz heç bir dövlətə məxsus deyil. Şimal sahili İran, cənub sahili Birləşmiş Ərəb Əmirlikləri və Omanın yarım-eksklavı tərəfindən idarə olunur. Bu bölgü 1974-cü ildə bağlanmış müqavilə ilə müəyyən edilib. Lakin İran və Birləşmiş Ərəb Əmirlikləri arasında boğazdakı 3 kiçik adanın

### İran niyə Hörmüzü “özününkü” sayır?

(Əbu Musa, Böyük Tunb və Kiçik Tunb) mülkiyyəti ilə bağlı mübahisələr bir neçə onillikdir ki, davam edir.

Beynəlxalq hüquqi baxımdan əsas sənəd 1982-ci il BMT-nin Dəniz Hüququ haqqında Konvensiyasıdır və bu konvensiya beynəlxalq naviqasiya üçün istifadə olunan boğazlarda tranzit keçidinin tətbiq olunduğunu müəyyən edir. Bu isə o deməkdir ki, bütün gəmilər və təyyarələr boğazdan maneəsiz tranzit keçidi hüququndan istifadə edirlər və bu hüquqa maneə törədilə, bu hüquq dayandırıla və ya xüsusilə birtərəfli şəkildə bağlana bilməz. Bu sistem xüsusilə hər hansı bir sahil dövlətinin həyati əhəmiyyətli qlobal ticarət yollarını bağlamasının qarşısını almaq üçün yaradılıb.

İran Hörmüzə sahib olmasını 1993-cü ildə qəbul olunmuş Fars körfəzi və Oman dənizinin dəniz əraziləri haqqında qanun ilə əsaslandırır. Qanuna görə, 12 dəniz mili daxilində Hörmüz boğazı İranın ərazi suları hesab olunur və ora açıq tranzit sayılmır. Yaxın Şərq qarşıdurması başlananda İranın Hörmüzü bağlaması da məhz bu qanunla “tənzimlənir” - tranzit keçidi heç bir halda dayandırıla bilməz, lakin sahil dövlətinin təhlükəsizliyinə təhdid yarandıqda və ya fövqəladə hallarda sahil su hissəsi sayılan keçid dayandırıla bilər...

*Pərviz SADAYOĞLU*

# Rusiya-Ukrayna müharibəsi ikinci planda...

## Yaxın Şərq vəziyyəti necə dəyişdi?

Yaxın Şərqdə davam edən ziddiyyətlər və münaqişələr nəticəsində Rusiya-Ukrayna müharibəsinin həlli ilə bağlı aparılan danışıqlar arxa plana keçib. Çünki hazırda ABŞ-ın İran probleminin həllinə fokuslanması Ukrayna müharibəsinə diqqət ayrılmasını mümkünsüz edir. Xatırladaq ki, Donald Tramp yenidən hakimiyyətə gəldikdən sonra bu müharibəni həll edəcəyini vəd etmişdi. Tramp bunun üçün diplomatik fəallığı artıraraq tərəflər arasında vasitəçilik edib. Belə ki, Vaşinqtonun təşəbbüsü ilə Rusiya və Ukrayna nümayəndələrinin  dəfələrlə görüşü keçirilib.

### Sonuncu görüş...

Rusiya, Ukrayna və ABŞ-ın iştirakı ilə üçtərəfli danışıqların birinci mərhələsi yanvarın 23-24-də, ikinci raundu isə fevralın 4-5-də Əbu-Dabidə keçirilib. Münaqişənin həllinə dair üçtərəfli danışıqların sonuncu - üçüncü raundu 17-18 fevral tarixlərində Cenevrədə baş tutmuşdu. Birinci gün məsləhətləşmələr təxminən altı saat davam edib və Rusiya ilə ABŞ və Rusiya ilə Ukrayna arasında ikitərəfli əlaqələri, eləcə də mənbələrin gərgin adlandırdığı üçtərəfli müzakirələri əhatə edib. RF nümayəndə heyətinə Rusiya Prezidentinin köməkçisi Vladimir Medinski, Ukrayna nümayəndə heyətinə Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibi Rüstəm Umerov başçılıq ediblər. Amerika tərəfini isə ABŞ Prezidentinin xüsusi elçisi Stiv Uitkoff və digər vasitəçilər təmsil ediblər. Danışıqların ikinci günü Əbu-Dabidə keçirilən əvvəlki raundlarla müqayisədə daha geniş məsələlərin müzakirəsinə həsr olunub.

Proses iştirakçılarının sözlərinə görə, tərəflər humanitar məsələləri, təhlükəsizlik zəmanətlərini, mümkün həllin siyasi parametrlərini, eləcə də bir sıra ərazi və iqtisadi aspektləri müzakirə ediblər. ABŞ Prezidentinin xüsusi elçisi Stiv Uitkoff Vaşinqtonun səyləri sayəsində əhəmiyyətli irəliləyiş əldə edildiyini bildirib. Tərəflər liderlərinə məlumat vermək və razılaşma üzərində işləməyə davam etmək barədə razılığa gəliblər. Bir sıra Qərb mediası isə danışıqlar prosesini mürəkkəb və mübahisəli hesab edib. Almaniya, Fransa, Böyük Britaniya və İtaliyadan olan nümayəndələr də Cenevrədə ayrıca məsləhətləşmələr aparıblar, lakin əsas danışıqlar formatına daxil edilməyiblər.

### Tramp: Hazırda biz daha çox İrana fokuslanmışıq

Növbəti üçtərəfli görüşün fevralın 26-da keçirilməsi qərara alınsa da, sonradan martın əvvəlinə kimi təxirə salınmışdı. Lakin bu da baş vermədi. ABŞ-ın İranla müharibəyə başlaması danışıqlar prosesinin gələcəyini sual altına qoymuş oldu. Bugünlərdə Mərkəzi Kəşfiyyat İdarəsinin (MKİ) rəhbəri Con Retkliff Senatın kəşfiyyat komitəsindəki dinləmələr zamanı “ABŞ İrandakı eskalasiyaya baxmayaraq, Rusiya ilə qarşıdurma şəraitində Ukraynanı bundan sonra da dəstəkləmək niyyətindədir” desə də, reallıq ortadadır. Təsadüfi deyil ki, Kremlin sözçüsü Dmitri Peskov “İzvestiya” qəzetinə açıqlamasında Rusiya və Ukrayna arasında Birləşmiş Ştatların vasitəçi qismində iştirakı ilə üçtərəfli danışıqlar prosesinin dayandırıldığını bildirib. O deyib ki, Rusiya Prezidentinin xarici dövlətlərlə investisiya və iqtisadi əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Kirill Dmitriyev



ikitərəfli Rusiya-Amerika qrupu formatında öz fəaliyyətini dayandırmayıb: “Kirill Dmitriyev işləməyə davam edir. Üçtərəfli qrup isə fasilə verib”.

Hazırda ABŞ-ın əsas diqqətinin İrana yönəlməsi rəsmi Kiyevi və onun müttəfiqlərini ciddi narahat edir. Ötən gün ABŞ Prezidenti Donald Tramp jurnalistlərə açıqlamasında bildirib ki, Vaşinqton hazırda əsas diqqətini İrana yönəldib və Ukrayna məsələsi ikinci plandadır: “Ukrayna mövzusu irəliləyir. Ümid edirəm ki, onlar razılığa gələ biləcəklər. Amma hazırda biz daha çox İrana fokuslanmışıq və bu məsələnin necə başa çatdırılacağını düşünürük”. Ağ Ev rəhbərinin bu fikirləri Kiyev və onun Avropa müttəfiqlərinin narahatlığını daha da artırır. Ona görə də, Kiyev problemin beynəlxalq birliyin gündəmindən düşməməsinə çalışır.

Avropa İttifaqı (Aİ) da Ukrayna probleminin həllinin beynəlxalq gündəmdən çıxmamasının tərəfdarıdır. Ukraynadakı vəziyyətlə bağlı gələcək müzakirələrdən danışan Aİ-nin ali nümayəndəsi Kallas Yaxın Şərqə olan diqqətin Ukraynadakı vəziyyətdən yayındırmamasının vacibliyini vurğulayıb.

### Ziddiyyətli yanaşmalar...

Tərəflərin razılığa gələ bilməməsinin əsas səbəblərindən biri odur ki, Rusiya Donbasın təslim edilməsini istəyir, Kiyev isə bunu rədd edir. “Reuters” agentliyinin öz mənbələrinə istinadən yaydığı məlumata görə, bu yaxınlarda Rusiya Prezidentinin xüsusi nümayəndəsi Kirill Dmitriyev ABŞ-da Tramp administrasiyasının üzvləri ilə görüşlər keçirib. Tərəflərin Rusiya ilə Ukrayna arasında potensial sülh müqaviləsini, eləcə də Rusiya-Amerika iqtisadi əməkdaşlığını müzakirə etdiyi bildirilir.

Bugünlərdə ABŞ-ın vitse-prezidenti Ceyms Devid Vens Ukrayna nizamlaması istiqamətində ciddi irəliləyiş əldə olunduğunu və danışıqlar prosesinin başlanğıcından bəri Moskva ilə Kiyevin atəşkəs şərtləri ilə bağlı mövqelərinin xeyli yaxınlaşdığını söyləməsi də təsadüfi deyil. “Biz əhəmiyyətli irəliləyiş əldə etmişik. Əvvəlcə Rusiya və Ukraynanı münaqişəyə son qoymaq üçün heç olmasa nə istədiklərini ifadə etməyə inandıra bilmirdik. İndi buna nail olmuşuq. Ukrayna və Rusiyadan yazılı bəyanatlar almışıq, zaman keçdikcə onların mövqeləri daha da yaxınlaşır”, - deyən Vensin sözlərinə görə, tərəflərin mövqeləri hələ tam uyğunlaşmasa da o, danışıqların perspektivinə nikbin baxır. Rusiya Xarici İşlər Nazirliyinin (XİN) xüsusi tapşırıqlar üzrə səfiri Rodion Miroşnik də Moskvanın üçtərəfli danışıqların bərpa olunmasını yubatmayacağını bəyan edib. Lakin bütün bunlara rəğmən danışıqlar prosesinin nə zaman bərpa olunacağı bəlli deyil. Əsas səbəb isə Tramp administrasiyasının diqqətinin İran böhranın həllinə yönəlməsidir.

*N.BAYRAMLI*

# “Köhnə qitə” təhlükəsizliyini necə qoruyacaq?

## ABŞ Avropaya silah satışını dayandırıb

ABŞ İran problemi ilə bağlı Avropa İttifaqı ölkələrinə silah tədarükünü təxirə salıb. Vaşinqton bəzi Avropa liderlərini İrandakı əməliyyat səbəbindən silah tədarükündə yaranan gecikmələr barədə məlumatlandırıb. “Reuters” agentliyi mənbələrinə istinadla yaydığı məlumata görə, gecikmələr Baltikyanı ölkələr və Skandinaviya regionu da daxil olmaqla bir sıra Aİ dövlətlərinə təsir edəcək. Agentliyin məlumatında bildirilir ki, ABŞ rəsmiləri yazışmalarda İrandakı münaqişənin ölkənin hərbi arsenalına ciddi təsir göstərdiyini qeyd edərək, bu səbəbdən əvvəllər imzalanmış müqavilələr üzrə öhdəliklərin tam şəkildə yerinə yetirilməsində çətinliklər yarandığını vurğulayıblar. Ağ Ev rəsmiləri Yaxın Şərqdə davam edən münaqişənin ABŞ müdafiə sənayesinin artan tələbatı qarşılamaq imkanlarını məhdudlaşdıra biləcəyindən narahatdırlar. Bu səbəbdən bəzi ölkələrə silah tədarükünün azaldılması ehtimalı nəzərdən keçirilir.

## Tramp Avropanı niyə hədələmişdi?

Xatırladaq ki, İranla müharibənin aktiv fazasında ABŞ Prezidenti Donald Tramp Avropa müttəfiqlərinin Hörmüz boğazı vasitəsilə gəmiçiliyin bərpası üçün koalisiyaya qoşulmaqdan imtina edəcəyi təqdirdə Ukraynaya silah tədarükünü dayandıracağı ilə hədələmişdi. Tramp ötən ay NATO-nun hərbi dəniz qüvvələrindən boğaz vasitəsilə gəmiçiliyin bərpasında ona kömək olunmasını tələb edib, lakin münaqişəyə cəlb olunmaq istəmədiklərini bildirən Avropa liderlərindən rədd cavabı alıb. Mənbələrin məlumatına görə, ABŞ lideri cavab olaraq Aİ ölkələri tərəfindən maliyyələşdirilən və NATO-nun Ukrayna üçün silah alışı proqramı olan PURL çərçivəsində tədarükləri dayandıracağı ilə hədələyib. Tramp ABŞ-ın İrana qarşı müharibəsinə kömək etmək üçün daha çox iş görmədiklərinə görə Avropa müttəfiqlərindən dəfələrlə narazılığını bildirib, eyni zamanda, Rusiya-Ukrayna münaqişəsini Vaşinqtonun deyil, Avropanın problemi adlandırıb.

Məlumdur ki, NATO çərçivəsində əsas hərbi yük ABŞ-ın üzərinə düşür. İndiyədək Vaşinqton alyansın hərbi xərclərinin 70 faizini qarşılayıb. Avropaya silah tədarükünün uzunmüddətli təxirə salınması isə bu ölkələrin təhlükəsizliyinə təhdid yarada bilər. Digər tərəfdən, Avropa ölkələri ABŞ-dan silahları Kiyevə dəstək məqsədi ilə də alır. Çünki Avropa Ukraynanın təhlükəsizliyinə öz təhlükəsizliyi kimi yanaşır. Vaşinqtonun Aİ-yə silah tədarükünü təxirə salması Trampın hədələrinin göstəricisi sayıla bilər. Silah tədarükünün təxirə salınması isə Ukraynanı döyüş meydanında çətinliklərlə qarşı-qarşıya qoyur. Təsadüfi deyil ki, ötən sutka ərzində Rusiya ordusu Ukraynaya növbəti şiddətli hücumunu edib.

## Rusiyanın hücumları şiddətlənir

Ukrayna Silahlı Qüvvələrinin Baş Qərargahının məlumatına görə, Rusiya ötən sutka ərzində yüzlərlə hava hədəfi - dron və raketlərlə Ukraynaya hücum edib. Hücumlar zamanı 26 obyektə zərbələr endirilib, bir neçə şəhərdə ölüm və yaralanma faktları qeydə alınıb. Ən böyük ziyan isə Kiyev, Dnepr və Odessa şəhərlərinə vurulub. Ölkə ərazisində 703 hava hədəfi (44 raket, 659 dron) qeydə alınıb, onlardan 667-si məhv edilib. Kiyevdə 4 ölüm (bir uşaq da daxil olmaqla), 58 yaralanma faktı qeydə alınıb. Onlarla yaşayış binası və mülki obyektə ziyan dəyib, ən böyük dağıntılar isə Podolsk və Obolon rayonlarında baş verib.

Dnepr və Dnepropetrovsk bölgəsində 3 ölüm və 34 yaralanma faktı qeydə alınıb, şəhər daxilində dağıntılar baş verib, həmçinin mülki şəxslər yaralanıb, onların bəzilərinin vəziyyəti ağırdır. Odessada isə azı 8 ölüm və 16 yaralanma faktı qeydə alınıb, mənzillərə və infrastruktura ciddi ziyan dəyib, yanğınlar baş verib və evlər dağılıb. Xarkovda isə iki nəfər yaralanıb. Burada bir neçə məhəlləyə, evlərə, avtomobillərə və qaz xətlərinə ziyan dəyib.



## NATO Kiyevə 60 milyard dollar həcmində hərbi yardım edəcək

Belə bir şəraitdə NATO Avropa İttifaqının kreditinə əlavə olaraq Ukraynaya 60 milyard dollar hərbi yardım verəcək. Bu barədə NATO-nun Baş katibi Mark Rutte Berlində Ukraynanın müdafiəsi üzrə təmas qrupunun iclasında bildirib. Qeyd olunub ki, NATO dövlətlərindən bu vəsaitlər 2026-cı ildə daxil olacaq. Onun sözlərinə görə, maliyyələşdirmədə prioritet hava hücumundan müdafiəyə, dronlara və uzaqmənzilli döyüş sursatlarına veriləcək. Baş katib, həmçinin üzv dövlətlər tərəfindən Ukraynaya dəstək xərclərinin qeyri-mütənasib bölüşdürülməsinə diqqət yetirib: “Bu, həqiqətən də problemdir: az ölkə həddindən artıq böyük yük daşıyır və biz bu məsələni həll etməliyik. Ukraynanın mübarizəsinə dəstək heç vaxt olmadığı qədər vacibdir”.

Böyük Britaniya da Ukraynaya dəstəyini gücləndirmək məqsədilə milyonlarla funt sterlinq dəyərində yeni yardım paketi elan edib. Maliyyə naziri Reyçel Rivz Ukraynanın Baş naziri Yuliya Sviridenko ilə görüş öncəsi 752 milyon funt sterlinq məbləğində ödənişi təsdiqləyib. Bu vəsait ümumilikdə 3,36 milyard funtluq kredit paketinin bir hissəsidir. Ayrılan maliyyə Ukraynanın müdafiə qabiliyyətini artırmaq üçün uzunmənzilli raketlər, qabaqcıl hava hücumundan müdafiə sistemləri və pilotsuz uçuş aparatları kimi vacib hərbi texnikanın alınmasına yönəldiləcək.

Eyni zamanda, müdafiə naziri Con Hili Ukrayna üzrə Müdafiə Əlaqə Qrupu çərçivəsində ölkəyə indiyədək ən böyük pilotsuz uçuş aparatları paketini təqdim edəcək. Bu təşəbbüs çərçivəsində Ukraynaya 120 min ədəd dron göndəriləcək. Paketə uzunmənzilli zərbə imkanlarına malik dronlar, kəşfiyyat vasitələri, logistika dəstəyi və dəniz dronları daxildir. Bu dronların əhəmiyyətli hissəsi Böyük Britaniyada istehsal olunacaq. Böyük Britaniya hökumətinin yaydığı açıqlamada deyilir: “Böyük Britaniya tərəfindən indiyə qədər təqdim edilən ən böyük yeni paketə minlərlə uzaqmənzilli zərbə dronları, kəşfiyyat və müşahidə dronları, logistika dronları və dəniz aktivləri daxil olacaq ki, bunların hamısı artıq Ukraynada cəbhə xəttində döyüş sınaqlarından keçirilib”. London bəyan edib ki, yeni dronların tədarükünə aprel ayında başlanılıb. Böyük Britaniya hökuməti vurğulayıb ki, bu silahların Böyük Britaniyada yerləşən “Tekever”, “Windracers” və “Malloy Aeronautics” müəssisələrində istehsalı yeni iş yerlərinin yaradılmasına kömək edəcək.

Niderland da Ukraynaya silah tədarük edəcək. Bu ölkəyə səfəri zamanı Ukrayna Prezidenti Zelenski Krallığın Baş naziri Rob Yettenlə görüşündə ilk növbədə təhlükəsizlik məsələlərini müzakirə ediblər. “Ukrayna Niderlanda təhlükəsizlik sahəsində xüsusi tərəfdaşlıq sazişi formatını - bizim “Drone Deal”ı təklif edib. Bu, səmanın qorunması üçün bütün imkanların kompleks inkişafına aiddir: raketlərdən, dronlardan müdafiə, REM-in (Radioelektron mübarizə) inkişafı, birgə silah istehsalı. Biz komandalara bütün detalları işləyib hazırlamaq tapşırığını verdik və bu işin başlanması haqqında sənədləri - həm “Drone Deal”, həm də məhz Niderlandla ilk birgə istehsal üzrə sənədləri imzaladıq”, - deyə Zelenski vurğulayıb. Onun sözlərinə görə, Niderland Ukrayna Silahlı Qüvvələrinə dronlar üçün 200 milyon avrodan çox vəsait ayırıb.

Norveç isə Ukraynaya dronların verilməsi üçün 500 milyon dollardan çox, Ukrayna logistikasının dəstəklənməsi üçün isə 150 milyon dollar ayıracaq. Belçikanın Kiyevə ayırdığı hərbi yardım paketinin dəyəri isə 1,1 milyard dollar həcmindədir.

*N.BAYRAMLI*

## Cevdet Yılmaz: Avropanın daha güclü liderə ehtiyacı var



Bu gün Avropanın daha güclü liderə ehtiyacı var və bu, dünyanın yenidən formalaşması baxımından vacibdir.

“Report” xəbər verir ki, bunu Türkiyənin vitse-prezidenti Cevdet Yılmaz Antalya Diplomatiya Forumu çərçivəsində keçirilən “Dəyişən dünyada regional sahibliyin rolu” mövzusunda keçirilən panel sessiyada deyib. O bildirib ki, Avropa İttifaqı bölgədə baş verən hadisələrdə mühüm rol oynaya bilər:

“Türkiyə ilə Avropa arasında əməkdaşlığın inkişaf etdirilməsi gözlənilir. Türkiyə bu istiqamətdə əməkdaşlığa hazır olduğunu bildirir. Coğrafi baxımdan Türkiyə Avropa, Asiya və Afrikanın kəsişməsində yerləşir və bu böyük əməkdaşlıq çərçivəsində mühüm rol oynaya bilər”.

Vitse-prezident, həmçinin qeyd edib ki, beynəlxalq qurumların təsirinin zəiflədiyi müşahidə olunur, İkinci Dünya müharibəsindən sonra formalaşmış dünya nizamı sanki geriyə qayıdır. O bildirib ki, Türkiyə bu tendensiyanı öz bölgəsində də aydın şəkildə hiss edir.

C.Yılmaz vurğulayıb ki, risklər və çətinliklər çoxdur, lakin yeni imkanlar da yaranır:

“İkili əməkdaşlıq və tərəfdaşlığın əhəmiyyəti getdikcə artır. Hazırda qlobal səviyyədə əməkdaşlıq xüsusi önəm kəsb edir. Diplomatiyanın rolunu açıq şəkildə görürük və bunu münaqişələrin fonunda daha da aydın hiss edirik”.

O, Türkiyənin NATO üzvü olduğunu xatırladıb və əlavə edib ki, ölkə Türk Dövlətləri Təşkilatında da təmsil olunur:

“Beynəlxalq qurumların formalaşmasında iştirak edən tərəflərdən biriyik. Biz müharibələrin deyil, diplomatiyanın tərəfdarıyıq. Ədalət və sülh əsas prioritetlərimizdir”.

## Çavuşoğlu: Avropa Türkiyə olmadan təhlükəsizlik sistemini qura bilməyəcək




Avropa Türkiyə olmadan təhlükəsizlik sistemini qura bilməyəcək, iyulda Ankarada keçiriləcək NATO sammiti isə gərginliyin azaldılmasına və alyans müttəfiqləri arasında birliyin möhkəmləndirilməsinə töhfə verəcək.

Bu barədə Türkiyənin sabiq xarici işlər naziri, ölkə parlamentinin NATO-dakı nümayəndə heyətinin rəhbəri Mövlud Çavuşoğlu bildirib.

O qeyd edib ki, Avropa İttifaqı (Aİ) ölkələri çox vaxt Aİ-yə daxil olmayan ölkələri, o cümlədən Türkiyə kimi NATO tərəfdaşlarını gözardı edirlər.

“Türkiyə kimi bir ölkə olmadan Avropanın təhlükəsizlik arxitekturasını qurmaq qeyri-mümkündür. Ankaradakı sammitdə prezident (Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan - red.) qonaqları qəbul etməklə yanaşı, gərginliyin azaldılması və NATO müttəfiqləri arasında birlik və həmrəyliyin bərpa olunması üçün səylər göstərmək niyyətindədir”, - o, Antalya Diplomatiya Forumunun panel sessiyasında çıxış edərkən bildirib.

ABŞ Prezidenti Donald Tramp tərəfindən NATO-nun fəaliyyətinin tənqid edilməsinə toxunan Çavuşoğlu qeyd edib ki, onun ilk prezidentlik dövründə Vaşinqtonun əsas gözləntisi avropalı müttəfiqlərin NATO-nun fəaliyyətinə və əməliyyatlarına töhfəsinin artırılması idi.

“Lakin Trampın bəyanatları - xüsusilə də avropalı müttəfiqlərə və NATO-ya münasibətdə - Avropada təkcə narahatlıq yaratmadı, həm də Qrenlandiya ətrafındakı vəziyyət kimi bir sıra məsələləri kəskinləşdirdi. Bu da öz növbəsində Avropanın strateji muxtariyyəti, yəni onun təhlükəsizlik sahəsində müstəqilliyi ilə bağlı müzakirələri sürətləndirdi və ya ən azından müvafiq səyləri fəallaşdırdı”, - Çavuşoğlu əlavə edib.

Onun sözlərinə görə, Avropa ölkələri, müttəfiqlər və digər dövlətlər, o cümlədən Türkiyə həm öz təhlükəsizliyini, həm də Avropanın təhlükəsizliyini təmin etmək üçün öz potensialını gücləndirməlidir.

“Avropalılara məsləhətimiz ondan ibarətdir ki, Avropa ölkələrinin, müttəfiqlərin və digər dövlətlərin, o cümlədən Türkiyənin öz təhlükəsizliyini və Avropanın təhlükəsizliyini təmin etmək üçün öz potensialını gücləndirməsi son dərəcə vacibdir. Lakin bu, NATO-ya alternativ kimi nəzərdən keçirilməməlidir”, - o vurğulayıb.

## ÜST meymunçiçəyi ilə bağlı Moskvadakı vəziyyəti izləyir



Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) Rusiyanın meymunçiçəyinə yoluxma hallarının aşkar edildiyi Moskva vilayətində epidemioloji vəziyyəti izləyir.

“Report” xəbər verir ki, bu barədə yerli “RİA Novosti” nəşrinə ÜST-nin rəsmi nümayəndəsi Tarik Jazareviç bildirib.

Onun sözlərinə görə, Domodedovo xəstəxanasında iki yoluxmuş pasiyent müalicə alır.

“ÜST monitorinq sistemi və Rusiya Federasiyasının səhiyyə orqanları ilə qarşılıqlı fəaliyyət vasitəsilə vəziyyətin inkişafına nəzarəti həyata keçirir”, - T. Jazareviç deyib.

O dəqiqləşdirib ki, hazırda dünyada xüsusi olaraq meymunçiçəyinin törədicisi ilə mübarizə üçün hazırlanmış tibbi preparatlar mövcud deyil. Xəstələnənlərin müalicəsi digər yanaşmalara əsaslanır və onların arasında simptomların aradan qaldırılması və mümkün tibbi fəsadların qarşısının alınması əsas əhəmiyyət kəsb edir.

Daha əvvəl epidemioloq, Gennadi Onişşenko TASS-a bildirib ki, Moskva ətrafında meymunçiçəyinə yoluxmanın daha bir, ilin əvvəlindən bəri artıq üçüncü halı qeydə alınıb.

“Bu, pisdir, bizdə artıq yerli yayılma gedir”, - alim deyib.

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**




# Şənbə üçün nəzm









*Sədaqət Kərimova*

### Vətən

Hər yurdun öz havası,
Hər elin öz avazı.
Hər quşun öz yuvası -
Ona deyilər vətən.

Şehdi o, çəndi o,
Canımızla təndi o.
Qibləgah axtarmayın,
Anamız vətəndi o.

Yüz dəfə deməklə can,
Kəsilməz yarada qan.
Sən onun oduna yan,
Onda öyünər vətən.

Yandırsan sobasını,
Hər kiçik obasının,
Öz bayram libasını
Onda geyinər vətən.

Uca tutaq adını,
İtirməyək dadını.
Hər igid övladının
Döyünən qəlbi - vətən.

### Doğmalar

Kirpiyim qovuşmur, gözüm yumulmur,
Bir ağrı qəlbimi dağıdır, didir.
Bu dərdli halımı nə kimsə görür,
Nə də qəribliyim əl çəkib gedir.

Xətrimə toxundu bir doğmam mənim,
Qəlbimi sındırdı o, bilə-bilə.
Köksümə sağalmaz bir yara vurdu,
Üstündən duz basdı o, gülə-gülə.

Bu da bir qismətdi, doğmalarımdan
Mənə ömrüm boyu ağrılar çatır.
Sonra qərq oluram qəm dəryasına,
Fikirlər aylarla başımı qatır.

Özgədən elə bir xətər toxunmaz,
Özgə evmi yıxar, qəlbmi ağrıdar?
Çağırsam, hər ötən haraya yetər,
Nə könül dağlayar, nə göz ağladar.

Nələr çəkməmişəm yaxınlarımdan...
Bunu mən bilirəm, bir də yaradan.
Ağrını, acını unutmaq üçün
Dözümü bilmirəm alım haradan.

Özgələr adamı yandırıb yaxmaz,
Özgədən adama bir pislik gəlməz.
Doğmanın doğmaya elədiyini
Yüz düşmən yığılsa, eləyə bilməz.

### Vaxtsız qonaq

Az istədim, çoxum getdi,
Nişan aldım, oxum getdi.
Gecələrdə yuxum getdi,
Bu sınaq nə sınaq imiş?

Yaz istədim, düşdüm qışa,
Ümidlərim dəydi daşa.
Qazandığım başdan-başa
Tənə imiş, qınaq imiş.

Bir ley idim, qıya düşdüm,
Heyif, səsə, küyə düşdüm.
Keçəmmədim, çaya düşdüm,
Demə körpü sınıq imiş.

Dost bildiyim yağı çıxdı,
Mahnı dedim, ağı çıxdı,
Bu dağ ürək dağı çıxdı,
Dərddən qalaq-qalaq imiş.

Yoxdur artıq ər sandığım,
Varım - böyük dərd sandığı.
Bu dünyada mərd sandığım
Demə vaxtsız qonaq imiş...

### İgidlər

Dağların başında ərənlər yaşar,
Hay salıb hayqırar, sel olub daşar.
Qəlbləri bu yurda sevgidən coşar,
Bu eşqlə dolarlar yaşa igidlər.

Döyüşə gedəndə gülər igidlər,
Odlardan sıyrılıb gələr igidlər.
Vətənin qədrini bilər igidlər,
Qartaltək zirvədə ölər igidlər.

Bu eldə gözəllər sevərlər mərdi,
Hər ocaq başında hər oğul ərdi.
Vətənçün can vermək burda hünərdi,
Hər biri nər oğlu nərdi igidlər.

Dar gündə elinin dadına çatar,
Düşmənin bağrına ox olub batar.
Vətənə borcunu ruhuna qatar,
Qeyrəti çox uca tutar igidlər.

### Yol ayrıcında

Tutulub göy üzü, duman tövşüyür,
Ağaclar yollara xəzan döşəyir.
Soyuqdan titrəyir, canım üşüyür,
Qalmışam küləklə yel ayrıcında.

Əsəndə üstümə bir qəmli nəsim,
Hanı məni duyub anlayan kəsim?
Mən kimdən inciyim, mən kimdən küsüm?
Qalmışam obayla el ayrıcında.

Deyəsən havalar ayaza gedir,
Saçımın qarası bəyaza gedir.
Ömrümün ümmanı dayaza gedir,
Qalmışam ay ilə il ayrıcında.

Dünya başdan-başa oyundur, gülüm,
Hər tora saldığın ovundur, gülüm.
Dərdliyəm, gəl məni ovundur, gülüm,
Qalmışam taleyin yol ayrıcında.

### Nigaran

İndiki ağılla, indiki qəlblə
Yenidən dünyaya gəlsəydim əgər,
Bu yaşı bilinməz ömür evinə
Niyə gəldiyimi bilsəydim əgər,

Mən nələr etməzdim, nələr, ah nələr,
Mənasız günləri ömrümdən silər,
Ağrılar üstündən addımlayardım,
Xoşbəxt günlərimi salamlayardım.

Bu həyat adlanan zaman yolunu
Bir qədər səbrlə keçə bilsəydim,
Yalanı doğrudan, yaxşını pisdən,
İnsanı adamdan seçə bilsəydim,

Günlərim narahat keçməzdi belə...
Eh, bütün bunları mən bilə-bilə,
Səhvlər içində azıram bəzən,
Ayağım altında dağ olur düzən.

Yenidən dünyaya gəlsəydim əgər...
Görəsən mən kimə oxşardım onda?
Kimə könül verib könlünü alar,
Kimi əzizləyib oxşardım onda?

Yenidən dünyaya gəlsəydim əgər...
Dünya öz yerində olardı görən?
Bu həyat, bu ömür, bu qəm, bu sevinc
O vaxt da dünyada qalardı görən?

Qocalar tədbirli, yaşlılar həlim,
Cavanlar gözəllik, eşq həvəsində.
Uşaqlar çağlayan gur şəlalələr,
Körpələr həyatın saf nəfəsində.

Adicə qayğılar, adicə günlər,
Görüşlər, vidalar, bəzən gileylər
Olacaq görəsən o vaxt dünyada?
Qalacaq görəsən o vaxt dünyada?

Yaxşı da, yaman da həmişə qoşa,
Sevgi, nifrət ilə girib yarışa.
Xeyir-şər elə bil verib baş-başa
Bu qoca dünyada, ulu dünyada.

Yenidən dünyaya gəlmək istəyim?
O zaman dünyadan nələr istəyim?
Elə bil az imiş dünyanın dərdi,
Elə bil bizim tək gəldi-gedərdi.

Div kimi şüşəyə salınıb canı,
Düymələr izləyir indi cahanı.
Bəşər övladının nədir niyyəti?
Niyə hədələyir bəşəriyyəti?

Dünya fikirlərin məngənəsində,
Ürəklər narahat, gözlər nigaran.
İntizar içində, qorxu içində
Hər yeni səhəri gözlər nigaran.

# Dünya səviyyəli mətni necə tapaq?

Hələ də intellektual cameəmizdə cavab axtarılan sualdır və “bəşəri mətnlər” kateqoriyasına dəxli yoxdur.

Ona görə də məhz “dünya səviyyəli mətnlər” anlayışının üstünlük verildiyi məsələdən danışaq. Nədir dünya səviyyəsi və dünyanın səviyyəsi? Dəniz səviyyəsi kimi sabit göstəriciləri var, yoxsa liberal-demokratiyanın iflası, faşizmin və güc üstünlüyünün parlaması onu da halbahal edir? Ədəbiyyata və Mədəniyyətə diktəetmələr dəniz kimi qabarıb-çəkildikcə onu daim təqib edən ideoloji, ictimai-siyasi, əsasən də, daş altında gizlənən, bəzən adına “yumşaq güc” deyilən sosial sifarişlər, görəsən, hansı “səviyyələri” müəyyənləşdirir? İş orasındadır ki, Ədəbiyyatın arxasında gizlənmək müvəqqəti xarakter daşıyır, mətn isə, ümumiyyətlə, heç nəyi gizlədə bilmir: ən qəliz şifrələri belə gec-tez açılır. Yaxşı ki, ümumilikdə, Ədəbiyyat dediyimiz nəsnə, dinindən, millətindən və irqindən asılı olmayaraq bütün gizli cildləri gec-tez ortaya qoymaq immunitetinə malikdir. O, bütün rəng və çaları bircə cümlə, hətta bircə söz birləşməsi ilə ifadə edə, min il əvvələ qaytara və sözlə oraların “fotosunu çəkə” bilər...

Dünya demişkən, Cənubi Azərbaycandakı müasir yazıçı-şairlərimizi ətraflı tanımırıq. O tayda bir-iki fədakar naşir və tərcüməçi var, bu taydan ədəbiyyat nümunələri seçib əski əlifbada çap edir, Təbriz və Ərdəbildə, hətta Tehranda yayırlar. Durub bizim nəşriyyatlara desək ki, bəlkə, bir müasir cənub kitab seriyası hazırlayaq, obyektiv olaraq dərhal maddi məsələ ön plana çıxacaq. Halbuki, məncə, oradan, ana dilmizdə, müasir və dəyərli əsərlərin çıxacağı gün uzaqda deyil. Hələ başqa ölkələrdə yaşayıb başqa dillərdə yazan gənc müəlliflərimizi demirəm. Onları bizim “ədəbi proses” qətiyyən maraqlandırmır. Yaxşı ki...



*Məqsəd Nur*

Dünyaya cənubla bərabər çıxa bilərikmi? Bu, “Mədəniyyət - 2040” konsepsiyasında əsl müzakirə mövzusu ola bilər, dövrün çağırışıdır. Hər hansı bir uyğun platforma yaratmaq mümkündür. Bu gün olmasa, bəs nə vaxt olacaq? Harri Potteri oxuyaq, seriallara da baxaq, vaxt qalsa, edərik? Gec olacaq...

“Dünya səviyyəli” mətnlər bizdə də var, yaranır və yaranacaq. Böyük mətnlər özündən başlayan mətnlərdir. Kənara qaçmağa nə hacət? Görsələr də, özləri bilər, görməsələr də. Dünya sürətlə dəyişir: “səviyyəli” nə peyda olursa, səhəri gün səviyyəmizin qapısını döyür. Beləcə də, “dünya səviyyəli” işlər əmələ gəlir...

*Yeganə BAYRAMOVA*

# Daşların danışdığı tarix



Tarixi abidələr zamanın sınağından çıxaraq bu günə qədər gəlib çatan səssiz şahidlər kimi yalnız daşdan, kərpicdən ibarət memarlıq nümunələri deyil, hər bir xalqın ruhunu, düşüncə tərzini və dünyagörüşünü özündə yaşadan canlı səhifələrdir. Bu baxımdan, bir ölkənin keçmişini öyrənmək, onun hansı mərhələlərdən keçdiyini anlamaq və mədəni irsini dünya ictimaiyyətinə tanıtmaq istəyənlər üçün ən etibarlı mənbə məhz bu abidələr olur. Çünki yazılı mənbələr zamanla itib-bata bilər, lakin əsrlərə sinə gərmiş abidələr xalqın tarixini susaraq belə danışmaq gücünə malikdir.

Məhz buna görə də, müasir dövrdə dövlətlər öz tarixi-mədəni irsinin qorunmasını prioritet məsələlərdən biri kimi müəyyənləşdirir. Abidələrin bərpasına, onların beynəlxalq səviyyədə tanıdılmasına və gələcək nəsillərə çatdırılmasına xüsusi diqqət yetirirlər. Tarixi abidələr həmçinin insanları keçmişi ilə birləşdirən, əcdadlarının yaşadığı dövrün ab-havasını ilə qovuşduran, bir sözlə, keçmişdən gələcəyə “körpü” rolunu oynayan mədəniyyət nümunələridir.

Yeri gəlmişkən, 18 aprel dünyada Abidələr və Tarixi Yerlər Günü kimi qeyd olunur. Əlamətdar gün Tarixi Yerlər və Abidələrin Mühafizəsi Şurasının (İCOMOS) təklifi üzrə 1983-cü ildə UNESCO tərəfindən təsis edilib.

Tarixin müxtəlif dövrlərindən bu günə qədər inşa edilmiş abidə və heykəllər özünəməxsus xüsusiyyətlərə malik olub. Belə ki, onların yaradılmasında müəyyən səbəb və məqsədlər var. Onlardan bəziləri vəfat etmiş şəxsin xatirəsini yaşatmaq naminə, digərləri isə insanların maraq və diqqətini çəkmək üçün inşa edilib. Sadaladığımız ikinci varianta aid olan heykəltəraşlıq nümunələri kreativ və orijinal obrazlarla seçilir. Bunların hər biri standartlardan kənarlaşaraq yüksək məharət və ustalıqla ərsəyə gətirilib.

## Dünyanın qeyri-adi və mübahisəli abidələri...

**Əyri ev**

Əyri ev 1765-ci ildə İngiltərədə tikilib. XIX əsrin əvvəllərində bu ərazidə dağ-mədən sənayesinin səbəbindən bir tərəfi əyilmişdi. Sonralar həmin ev “Sedan House” adlandırılmağa başlanıldı (Sedan yerli dialektdə əyri mənasını verir).

Ev 1940-cı illərdə təhlükəli olaraq qeydə alınmış və məhv olunması planlaşdırılmışdı. Lakin “Wolverhampton and Dudley Breweries” şirkəti bu evi alaraq evin əyilən hissəsini dayaq kimi divar düzəltmişdi.

**Dönən bədəni xatırladan göydələn**

Bu göydələn Skandinaviyada ən hündür binadır. Binanın dizaynı ispan memarı, struktur mühəndisi və rəssamı Santiaqo Kalatrava tərəfindən edilmişdi. Rəsmi açılışı 2005-ci il avqustun 27-də olub. Binanın hündürlüyü 190 metr olmaqla, 54 mərtəbə və 147 mənzildən ibarətdir. Bina 2005-ci ildə Qızıl Emporis Göydələn mükafatına layiq görülüb.

**Ayaqqabı ev**

Evin dizaynı 1948-ci ildə ABŞ-da çəkməçi Mahlon Haines tərəfindən təklif edilmişdi. Evin hündürlüyü 7,6 metr olmaqla 5 mərtəbədən ibarətdir. Çəkməçi öz düzəltdiyi çəkməni memara göstərərək, onu kimi ev tikməyini xahiş edir. Evin qonaq otağı barmaqlarda, mətbəx ayaqqabının daban hissəsində, yataq otaqları isə topuq hissəsində yerləşir.

**Kubik evlər**

Kublara bənzəyən bu evlər Niderlandda Piet Blom adlı memar tərəfindən dizayn olunub. Memar kuba bənzər bu evləri 45 dərəcə əyərək 6 bucaqlı pilon üzərində dizayn etmişdi. Onun dizaynı şəhərin içində kəndi xatırladır. Çünki hər bir ev ağaca və bütün evlər birlikdə meşəyə bənzəyir. Bu evlərdən 18-i ilk dəfə Helmondda 1974 və 1977-ci illərdə tikilməyə başladı. Rotterdamdakı evlər isə 38 ədəd balaca kublardan ibarətdir.

**Nağıl evi**

Vyetnamda nağıllar aləmini xatırladan bu ev ümumi dizaynı heyvanlar, göbələklər, hörümçək ağları və mağaralar kimi təbii formaları təmsil edən heykəltəraşlıq dizayn elementlərini birləşdirən nəhəng bir ağaca bənzəyir. Bina özünəməxsus arxitekturası ilə çox sayda kitablarda qeyd edilmiş və dünyanın ən qəribə binalarından birinə çevrilmişdi. 1990-cı ildə tikilmiş ev Vyetnam memarı Dang Viet Nga tərəfindən şəxsi bir layihə olaraq irəli sürülüb. Ev 10 qonaq otağından ibarətdir ki, hər biri bir heyvanın (pələng, qartal, qarışqa, kenquru və s.) otağı kimi təsvir edilib. Eyni zamanda hər bir otaq bir xalqı simvolizə edir. Məsələn, pələng otağı çinlilərin güclü olmasını, qartal amerikalıların böyük və güc sahibi olmasını, qarışqa vyetnamlıların çalışqanlığını ifadə edir.

**Lotus məbədi**

Hindistandakı bu binanın görünüşü nəhəng lotos gülünü xatırladır və 27 ləçəkdən ibarətdir. Həmin ləçəklər 3 mərtəbə formasında qurulub. Məbədin hündürlüyü 34 metrdir və məbədin daxilində 1300 nəfər insan eyni anda ibadət edə bilər.

Məbədin unikallığı ondadır ki, burada bir ədəd də olsa düz xətt boyunca yerləşən hissə yoxdur. Məbədin tikilməsi üçün İrandan Fariburz (Fariburz Sahba) dəvət edilmişdi. Tikinti işləri 1980-ci ildə başlasa da, 1986-cı ilin dekabrında yekunlaşdırılmışdı.

**Ən mübahisəli abidələr...**

Dünyadakı bütün abidələr hamı tərəfindən birmənalı olaraq sevilmir. Bunun isə müxtəlif səbəbləri var.

**“Mount Rushmore”**

ABŞ-da yerləşən bu məşhur abidənin heykəltəraşının “Ku Klux Klan” - tarixin şahid olduğu ən qəddar təşkilatlardan birinə mənsub olduğu hesab olunur. Həmçinin məhkəmə qərarı ilə bu abidənin işğal olunmuş bölgədə inşa edildiyi də təsdiqlənib. Elə buna görə də, abidəyə münasibət yalnız müsbət deyil.

**“The Fallen Angel” heykəli**

Bu heykəl şeytana həsr olunmuş yeganə heykəldir. Ən mübahisəli tərəfi isə bu abidənin İspaniyada bir vaxtlar kafirləri ciddi şəkildə cəzalandıran ölkədə elə eyni ərəfədə hazırlanmasıdır.

**“Yasukuni Shinto” məbədi**

Yaponiya uğrunda canlarını vermiş əsgərlərin şərəfinə tikilmiş bu abidə ilk baxışda çox normal görünə bilər. Lakin insanlar burada yalnız şəhidlərin deyil, həmçinin birinci dərəcəli hərbi canilərin də xatirəsinin əbədiləşdirildiyini öyrənəndə fikirləri birtərəfli olmur.

**“The Don Juan de Onate” heykəli**

ABŞ-da yerləşən bu heykəl dəfələrlə vandalizmin qurbanı olub. Səbəbi isə sadədir: Onate bu bölgədə yüzlərlə insanı edam edib və qəddarlığı ilə tanınıb.


Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**493-16-94**
**498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 5220**
**Sifariş: 495**
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova